Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar – İlyas Əfəndiyev

**Xalq yazıçısı İlyas Əfəndiyevin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2024**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar – İlyas Əfəndiyev 110** illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2024. – 125s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## İlyas Əfəndiyev: Şeirə sığmayan ömür

İlyas Əfəndiyev çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkarlardandır. Əgər biz onun həyat və yaradıcılıq yolunun hər hansı bir ilini, yaxud qısa bir dövrünü ciddi xronoloji ardıcıllıqla izləsək, maraqlı bir mənzərənin şahidi olarıq: yazıçı eyni dövr ərzində hekayələr yazmaqla yanaşı, istedadlı bir dramaturq kimi də fəaliyyət göstərmiş, irihəcmli roman və povestlərlə bərabər, oçerk və məqalələr də ərsəyə gətirmiş, konfrans və qurultaylarda məruzələrlə çıxış etmişdir. O, ədəbiyyatın bütün janrlarında kamil sənət nümunələri yaratmışdır ki, bu da yazıçının sənət palitrasının müxtəlif çalarlarından, dünyagörüşünün genişliyi və yaradıcılıq intellektindən xəbər verir.

XX əsr Azərbaycan ədəbiyyatının kassiklərindən olan, milyonlarla oxucu və tamaşaçının məhəbbətini qazanan, ədəbiyyatımız və teatrımızın tarixində silinməz izlər qoyan İlyas Əfəndiyevin vəfatından 28 ilə yaxın bir vaxt keçir. Yaratdığı əsərlərlə oxucunu düşündürmək, hisslərinə hakim kəsilmək, onu gözəlliklər aləminə çəkib aparmaq kimi ali keyfiyyətlər hər qələm sahibinə nəsib olmur. Dərin məna tutumuna malik olan, həyatı gücütək özündə əks etdirən əsərləri ilə xalqın məhəbbətini qazanan İlyas Əfəndiyev belə xoşbəxt taleli sənətkarlardandır.
Onun qələmindən çıxan hər söz, hər cümlə “Bahar suları” kimi canlı və qaynar idi. “Söyüdlü arx”ından iyirminci əsr Azərbaycan lirik nəsri su içdi, “Körpüsalanlar”ı qəlblərə sevgi, məhəbbət, səmimilik ab-havası gətirdi. “Dağlar arxasında üç dost”u isə müasir Azərbayycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələrindən biri kimi

şöhrət qazandı. Parlaq yaradıcılığı ilə ədəbi prosesinin öncül sıralarında addımlayan İlyas Əfəndiyev həm də görkəmli dramaturq kimi teatr sənətinin inkişafında əvəzsiz rol oynadı.

Təməli Mirzə Fətəli Axundov tərəfindən qoyulan Azərbaycan teatrı nəhəng və möhtəşəm bir binanı xatırladır. Onun hər mərtəbəsində bir sənətkar bərqərar olub: Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı...Onların sırasında dayanmağa İlyas Əfəndiyevin qüdrəti çatdı; daha doğrusu, tetrımızın möhtəşəm binasında özünə məxsus mərtəbəni fəth etdi.

İlyas Əfəndiyev bədii yaradıcılığının ədəbi -estetik əhəmiyyəti onun əsərlərinin uzunömürlülüyünü, populyarlığını əmin edir. Xalq, Vətən, cəmiyyət, insanlıq qarşısında mənəvi borca fəal münasibət onun qəhrəmanlarının əsas amalıdır. Ədəbi-ictimai fikir tariximizdə lirik – psixoloji üslubun inkişafı və uğurları bilavasitə İlyas Əfəndiyevin adı və əsərləri ilə bağlıdır.

Danılmaz faktdır ki, ədəbiyyatımızda heç bir dramaturq İlyas Əfəndiyev qədər teatrla uzunmüddətli fəal yaradıcılıq əlaqəsində olmamışdır. Azərbaycan Dövlət Akademik Milli Dram Teaatrda yazıçının bütün pyesləri tamaşaya qoyulmuşdur. Dramaturgiyasının nadir incilərindən sayılan, yüksək vətəndaşlıq pafosu, incə lirizmlə aşılanan bu pyeslər teatr sənətimizdə təzə bir mərhələ olmuş, yeni aktyor və rejissor nəslinin yetişməsində əvəzsiz rol oynamışdır.

Ədibin çoxşaxəli yaradıcılığının təhlili neçə-neçə mühüm məqam və məziyyətləri önə çəkməklə yanaşı, onun mütəxəssislər tərəfindən daha dərindən araşdırılmasının vacibliyini də şərtləndirir. Bu məsələ həm də ona görə aktual və əhəmiyyətlidir ki, İlyas Əfəndiyev öz əsərlərində Azərbaycan xalqının tarixinin mühüm səhifələrini ədəbiyyat və teatr vasitəsilə bugünkü nəslə çatdırmış,hər bir vətəndaşı tarixə hörmət bəsləməyə səsləmiş, mənəviyyat, əxlaq, insanlıq, vətənə və millətə sədaqət ruhu aşılamışdır.

Beləliklə, ədib xalq qarşısında öz sənətkar missiyasını şərəflə yerinə yetirmiş, mədəniyyətimizə, teatrımıza, ədəbiyyatımıza çox böyük irs, qiymətli sərvət qoyub getmişdir.

İlyas Əfəndiyev xalqımızın tarixi keçmişini dərindən öyrənməyi və ona tam yiyələnməyi tövsiyə edərək göstərirdi ki, xalqımız Vətənini, mədəniyyətini tarix boyu sevib, onun yolunda fədakarlıq göstərib və bu gün də öz məsləkindən dönməyib.

Görkəmli sənətkarın mədəniyyət məsələləri ilə bağlı nəzəri görüşlərinin mərkəzində bu gün də öz elmi aktuallığını saxlayan bir cəhət diqqəti cəlb edir: "Azərbaycan incəsənəti, Azərbaycan elmi dünya mədəniyyəti xəzinəsinə dəyərli əsərlər vermişlər. Çox qədimlərdən gələn mədəniyyət estafetimiz yenə yüksəklərə qalxır".

Dünya ədəbiyyatına, dünya mədəniyyətinə dərindən bələd olan yazıçı əsl sənətin ideya-bədii siqlətini

onun məna gözəlliyi ilə ölçürdü. Belə ki, onun bədii əsərlərində olduğu kimi, nəzəri-estetik görüşlərində də xalqımızın milli-mənəvi dəyərləri, xüsusən adət-ənənələri, qonaqsevərlik, toy, nişan mərasimləri yüksək qiymətləndirilir.

Böyük Vətən müharibəsi illərində İlyas Əfəndiyev “Durna”, Kiçik bir poema”, ”Tar”, ”Sən ey qadir məhəbbət”, ”Qəhrəman ilə bülbülün nağılı”, ”Apardı sellər Saranı”, ”Qarı dağı” hekayələrini yazdı. Bu hekayələrin əsas ruhu xalq yaradıcılığından götürülmüşdü.

Yazıçı müharibə dövrünün psixologiyasını yaxşı duyurdu: Yaratdığı yeni əfsanələrlə insanlarda vətənpərvərlik hisslərini artırmağa çalışır, onları qələbəyə ruhlandırırdı. “Dağlar arxasında üç dost” romanında yazıçı belə bir həqiqəti aşılamağa çalışırdı ki, həyatın mənası təkcə işləməkdə deyil, mənəvi zənginlikdə və o ali keyfiyyəti qorumaqdadır. Onun hər bir əsəri orada qoyulan problem ilə seçilirdi. Daha çox onu mənsub olduğu xalqın tarixi taleyi düşündürürdü. “Natəvan”, ”Hökmdar və qızı”, ”Xiyabani” pyeslərində tarixi hadisələrə müasir bucaqdan baxırdı; tarixi sadəcə vərəqləmir, onu bu günün təfəkkürü işığında bizə təqdim edirdi.

İlyas Əfəndiyevin yaradıcılığı çoxşaxəlidir, zəngindir. Belə ki, o, dilimizi incəliklərinə qədər duyan, sevən ona həssaslıqla yanaşan sənətkar idi. Ədibin fikrincə, Azərbaycan dili dünyanın ən ahəngdar, musiqili, şirin dillərindəndir. Ona görə də yazıçının zəngin bədii irsi

milli ədəbiyyatımızın, teatrımızın, kino sənətimizin inkişafına böyük təsir göstərmişdir. Bu xüsusiyyətlərinə görədir ki, o, keçən əsrin –iyirminci əsrin lirik psixoloji üslubda yazıb-yaradan ən qüdrətli sənətkarı hesab edilir.

Yazıçının bədii əsərlərində toxunduğu mənəviyyat problemləri bədii estetik dəyərinə, fikir genişliyinə, ictimai-siyasi mahiyyətinə görə bu gün də bizi düşündürür. Səbəbi aydındır: bu əsərlərdə qoiyulan məsələlər aktualdır, gənclərimizin milli düşüncə və əxlaq tərzinin formalaşmasında çox dəyərli əhəmiyyətə malikdir.

Ona görə də İ.Əfəndiyevin yaradıcılığına maraq sönmür, əksinə günbəgün artır. Belə ki, əsərləri mütəmadi olaraq müxtəlif qəzet və jurnallarda çap olunur,seçilmiş əsərləri çoxtirajla nəşr edilir, pyesləri bir sıra teatrlarda, müxtəlif rejissorlar tərəfindən tamaşaya qoyulur.

Azərbaycanın xalq yazıçısı, Dövlət mükafatı laureatı İlyas Əfəndiyevin nəzəri-estetik görüşlərində ana dilimizə həsr etdiyi məqalələrində konseptual məzmun daşıyan mülahizələri yeni fikir miqyası və elmi tutumu ilə seçilir.Ustad sənətkar öz yaradıcılıq dünyasını əsasən milli folklorumuzun çoxçalarlı qaynaqları ilə naxışlamışdır.

İlyas Əfəndiyev peşəkar teatrımızın əlli ilinin repertuar ağırlığını öz çiyinlərində daşıdı desək, səhv etmərik. Çünki o,dramaturgiyamıza onlarla kamil və orijinal obrazlar qalereyası bəxş etdi. Belə ki, o, Azərbaycan milli teatrında lirik- psixoloji üslubun təməlini

qoydu və bu təməlin formalaşması üçün ölməz sənət əsərləri yaratdı.

İlyas Əfəndiyev bu günün, həm də gələcəyin yazıçısıdır. Bunu sübut etməyə ehtiyac yoxdur. Onun ölməz əsərləri bunu deməyə haqq verir. Çünki o, millətin mənəvi birliyi, ən qiymətli sərvəti olan müqəddəs dilimizə yüksək qiymət verən və onun təəssübünü çəkən sənətkar idi. "Hər bir xalqın ancaq özünəməxsus milli ruhu, milli koloriti var" deyən sənətkarın fikrincə, "Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır."

Yazıçının tarixi mövzulardakı dram əsərləri öz bədii-fəlsəfi fikir dərinliyi, müasirliyi, yüksək mənəvi-əxlaqi dəyərləri seçilir.

İyirminci əsr Azərbaycan teatr tarixində "İlyas Əfəndiyev teatrı" ifadəsi, anlayışı və praktiki təzahürü danılmaz kulturoloji faktdır. Bir sözlə, İlyas Əfəndiyev teatrı milli özünüdərkin və milli mənəvi dəyərlərin güzgüsüdür.

Yazıçı 60 ildən çox yaradıcılıqla məşğul olmuşdur. Qələmə aldığı hekayə və oçerklərdə, eləcə də iri həcmli- povest, roman və dram əsərlərində Azərbaycan xalqının həyatı, onun taleyi və adət-ənənəsi öz əksini tapmışdır. Daha doğrusu, o, bu vaxt kəsiyində doğma mızın gözəlliyi, onun nemətlərinin müqəddəsliyi ,Azərbaycan dilinin şirinliyi və cazibədarlığı barədə nəğmələr oxumuşdur. Bu məğrur və nəcib nəğmələr ürəyində yurd məhəbbəti, Vətən qeyrəti gəzdirən insanları daha gözəl günlərə səsləmişdir.

Ümummilli liderimiz Heydər Əliyev İlyas Əfəndiyev yaradıcılığına həmişə qayğı ilə yanaşmışdır. O, yazıçının sağlığında, həmçinin vəfatından sonra da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulan əsərlərinə baxmış, onun yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi üçün sərəncamlar imzalamışdır. İlyas Əfəndiyev müstəqil respublikamızın "Şöhrət" ordeni ilə təltif edilən ilk sənət adamlarındandır. Yazıçının adı o taylı-bu taylı Azərbaycanımızın hər yerində, eləcə də dünyanın bir sıra guşələrində böyük ehtiram və məhəbbətlə çəkilir. Onunla xalqımız öyünə bilər. Təkcə onu demək kifayətdir ki,o, Azərbaycan dramaturgiyasında yeni bir məktəb yaratməş, lirik-psixoloji pyeslər yazmışdır.Bir diqqət edin. Qələmə aldığı 23 dram əsərinin 19 - u eyni bir teatrın- Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş, çox böyük müvəffəqiyyət qazanmışdır. Bu ,dünya teatr tarixində analoqu olmayan bir hadisədir.

Ədibin bir sıra əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilmiş, pyesləri Moskva, Daşkənd, Tbilisi, Aşqabad, Səmərqənd, Ankara, İstanbul, Razqrad, Mahacqala və başqa şəhərlərin teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Azərbaycan dramaturgiyasında lirik-psixoloji üslubun təşəkkülü, inkişafı və formalaşması İlyas Əfəndiyevin yaradıcılığına borcludur. Yeni Azərbaycan nəsrinə isə canlı, təravətli, bədii surətləri, əlvan təsvir vasitələrini məhz İlyas Əfəndiyen gətirmişdir.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan nasir, dramaturq, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli xalq yazıçısı İlyas Əfəndiyev ədəbi janrın müxtəlif formalarında yaratdığı əsərlərlə ədəbi xəzinəmizi zənginləşdirmişdir. Bir daha xatırladırıq ki, o, 60 il ədəbiyyatımızın, 40 il teatrımızın mövzu və repertuar ağırlıqlarını çiyinlərində daşıyan fədakar yazıçı, əsl vətəndaş idi.Yazıçı-dramaturqun qələmə aldığı pyeslər əsasında hazırlanmış tamaşalar uzun illər respublikamızın aparıcı teatrlarının repertuarlarını bəzəmişdir.

İlyas Əfəndiyev xoşbəxt sənətkarlardandır. Onun əsərləri oxucuların, tamaşaçıların qəlbinə yol tapıb, onların sevgisini qazanıb. Bütün bunlar ona ilham verib. Bunu ən böyük xoşbəxtlik sayıb. Həmişə qürürlanıb. Xalq da böyük sənətkarı ilə öyünüb, iftixar hissi keçirib.Ən böyük qiymətdir bu. Bu isə hər sənətkara qismət olmur.

Milli ənənələrə, folklora, klassik irsə möhkəm bağlılıq , müasirlik, novatorluq İlyas Əfəndiyev yaradıcılığının əsas xüsusiyyətləridir.

Həyat hadisələrini bütün incəliklərinə qədər tərənnüm edən, onları dərin bədii təhlil süzgəcindən keçirib ümumiləşdirən, səlis, təbii dillə oxuculara çatdıran İlyas Əfəndiyev həm də şairanə ruha, poetik ifadə tərzinə malik sənətkardır.

İlyas Əfəndiyev yaradıcılığı üçün səciyyəvi cəhətlərdən biri onun təbii və canlı bir dildə yazmasıdır.Bədii üslubu formalaşdırıb dolğunlaşdıran

mənbə və amillər, folklor poetikası, folklor ənənə və motivləri İlyas Əfəndiyevin yaradıcılığında olduqca güclüdür.

Azərbaycan dilinin zəngin söz xəzinəsinə, çoxçeşidli çalarına, bu dilin şəhdi-şəkərinə dərindən bələdliyindən və vurğunluğundandır ki, yazıçının əsərlərinın dili poetikliyi ilə seçilir. Ədib Azərbaycan nəsrinə və dramaturgiyasına lirik-psixoloji üslubla yanaşı, həm də yüksək koloritli bədii dil gətirmişdir. Onun əsərlərinin dili əfsanə, rəvayət, nağıl və dastanların leksikasından gələn üslubi çalarlarla zəngindir. El ədəbiyyatından qaynaqlanan dərin hikmət, hər bir sözü yerində işlətmək, yüksək ideya-məzmun, fəlsəfi dərinlik, sistemli sintaktik düzüm, bədiilik, obrazlılıq, ləngərli deyim ekspressivliyi, axıcılıq və yüksək şeiriyyət bu əsərlərin təsirliliyini, estetik siqlətini, bədii hüsnünü və məna dərinliyini daha da artırır.

Obrazların dilindəki xalq deyimləri, ifadələr əsərlərin bədii dəyərini artırmaqla yanaşı, dil baxımından emosional və axıcı olmasını təmin edir. Fikrin sadə və aydın ifadəsi, obrazların dilinin sadəliyi, şirinliyi və xalq dili üstündə köklənməsi İlyas Əfəndiyev sənətinin, dilinin əlvanlığından, gözəlliyindən xəbər verir. Yazıçı hər bir surəti öz təbiətinə uyğun şəkildə danışdırır.

Yazıçının əsərlərində adi danışıq dili ilə bədii dilin qaynayb qarışması mətnə xüsusi bir gözəllik verir.

İlyas Əfəndiyevin bədii sözü oxucunun ürəyinə tez yol tapır və bu söz unudulmur, yaddaşda qalır. Ədibin əsərlərindəki sözlər arasındakı ilişgilər həm qrammatik, həm də poetik ilişgilərdir.

Cümlələrdəki yatımlı öz düzümü, semantika, səs çalarlarının rəngarəngliyi və ahəngdar təhkiyə üsulu bu əsərlərin təsirliliyini və təbiiliyini artırır. Akademik Məmməd Arif dramaturqun bədii dilinin estetik təravətindən və bədii gözəlliyindən bəhs edərək yazırdı: " İlyas Əfəndiyevin üslubuna qüvvət verən, lirik-romantik ruhunu qanadlandıran amillərdən biri də onun bədii dilidir. Ədibin çox təmiz, aydın yüksək bədii qüvvəyə malik dili vardır. Bu, səlis, hətta şairanə dərəcədə təsirli dilin gözəl ifadə tərzinin vasitəsilə yazıçı təbiətin füsunkar gözəlliklərini, kənd həyatının ürəkaçan təbii mənzərələrini canlandırdığı kimi insan qəlbinin də ən incə duyğularını, zərif tellərini dilləndirir, öz qəhrəmanlarının daxili aləmini məharətlə işıqlandırır."

İlyas Əfəndiyev dilindəki ekspressivlik və yüksək bədiilik dəruni hiss və duyğuların daha təsirli ifadə olunmasına və estetik gözəlliyinə bir tamlıq gətirir.

İlyas Əfəndiyev millətimizin mənəvi birliyinə, onun dilinə yüksək qiymət verən, onun təəssübünü çəkən sənətkar idi. "Hər bir xalqın ancaq özünəməxsus milli ruhu, milli koloriti var" - deyən sənətkarın fikrincə: "Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır."

Ədəbiyyata gətirilən sözü yazıçı elə işlətməlidir ki, o, hamı üçün anlaşıqlı olsun. Xalqın ruhu ilə, canlı danışıq dili ilə mayalanmış əsərlər həmişə ümumxalq rəğbətini qazanır. Əsl sənət nümunəsi yaratmaq üçün ədib, istedadla, əzablı, əziyyətli zəhmətin birləşməsini vacib sayırdı. Sənətkar deyirdi ki: "Mən əziyyət çəkməkdən geri durmamışam." Və onu da fəxrlə əlavə edirdi ki, "hər bir

əsərim ömrümün bir parçasıdır."  O haqlı idi. Çünki "ömrünün bir parçası" hesab etdiyi bu əsərlər "ilahi vergi" saydığı əsl istedadın və böyük zəhmətin hesabına yaranmışdı.

Sənətkara görə, "istedad ilahi bir vergidir və bu vergini sönməyə, məhv olmağa qoymamaqdan ötrü tanrı bəndəsi, "yoruldum" sözünü dilə gətirməməli, gecə-gündüz işləməlidir."

İlyas Əfəndiyev bədii əsərlərinin dili aydın və obrazlıdır, zəngin ifadə vasitələrinə və lüğət tərkibinə malik bir dildir. Yüksək estetik dəyəri və bədii siqləti ilə seçilən bir dildir.

Fərdi sənətkarlıq məziyyətləri, fəlsəfi məfkurəsi, miqyaslı poetik düşüncəsi onu Şərq fəlsəfi təfəkkürünün ünlü nümayəndəsi kimi tanıtmışdır. Dramaturqun zəngin xalq düşüncəsindən qaynaqlanan bədii əsərlərinin dilindəki həzinlik, obrazlılıq, təbiilik və musiqilik onun poetik ruhunun bulaq kimi saflığından və böyük ədəbi istedadından xəbər verir.

Həmişəyaşar sənətkarımız İlyas Əfəndiyevin bədii əsərlərinin dil və üslub xüsusiyyətləri çağdaş zəmanəmizdə yeni meyar işığında öz  tədqiqini gözləyir.

İlyas Əfəndiyev həm nəsr, həm dram əsərlərini cazibədar bir üslubda, şirin dillə yazmış, ilk təsvirlərdən, ilk dialoqlardan oxucu və tamaşaçı qəlbini fəth etmişdir. Təsadüfi deyil ki, “Bahar suları” pyesinin şeriyyətini vaxtilə xalq şairi Səməd Vurğun yüksək qiymətləndirmişdir. Həmin keyfiyyətlər ədibin əsərlərində zaman keçdikcə daha da büllurlaşmış, dramaturq və nasir

kimi onun fərdi üslubunu müəyyənləşdirən amillərdən birinə çevrilmişdir. Elə buna görədir ki, hər dəfə İlyas Əfəndiyevin hər hansı pyesini səhnədə görənlər, yaxud romanını oxuyub son səhifəsini çevirənlər həm də dilimizin məna dərinliyi, ifadə gözəlliyi və ahəngdarlığı ilə yaxından təmasda olduqları üçün razılıq duyğusu yaşayırlar. Bir daha fəxr edirlər ki, doğma dilimiz böyük ictimai və estetik həqiqətləri, güclü fikir və ehtirasların vüsətini, insan qəlbinin ancaq böyük sənətkarların işıqlandıra bildiyi incəliklərini yüksək bədii səviyyədə əks etdirmək baxımından belə geniş imkanlara malikdir!

Əfəndiyev İlyas Məhəmməd oğlu (1914-1996) - nasir, dramaturq, 1940-cı ildən AYB-nin üzvü, Azərbaycanın əməkdar incəsənət xadimi (1960), Azərbaycan Dövlət mükafatı laureatı (1972), Azərbaycanın xalq yazıçısı (1979) olmuşdur.

O, 1914-cü il may ayının 28-də Qaryagində (indiki Füzuli şəhəri) tanınmış və hörmətli tacir ailəsində dünyaya göz açmışdır. Nəsilliklə oxumuş ruhani və varlı tacir ailəsindən çıxmış Məhəmməd kişi 1884-cü ildə anadan olmuşdur. Onun atası və babası bütün Qarabağda tanınan, kasıblara, yoxsullara əl tutan, xeyirxah və alicənab adamlar idilər. Bu ailənin bir qolu tacir nəslinə mənsub olub alqı-satqı işləri ilə məşğul olmuşdur. Digər qolu isə ruhani təhsili almış, savadlı axund və üləmalardan ibarət idi. Əfəndiyevlər ailəsi Sovet hakimiyyəti dövründə, 30-cu illərdə ciddi təqiblərə məruz qalmış, onların ata-baba mülkü əllərindən alınmış, ailənin bəzi üzvləri "xalq

düşməni" kimi güllələnmiş, bəziləri həbs edilərək vətəndən uzaqlara sürgün olunmuşdur. Yazıçının atası Məhəmməd Əfəndiyevin evi, böyük mülkü, bağı zəbt edilmiş, "səs hüququndan" məhrum olunmuşdur. Ağır sıxıntı və ehtiyac içərisində yaşayan Məhəmməd Əfəndiyevin ailəsi mağazadan ərzaq malları, pal-paltar almaq hüququndan belə məhrum edilmişdir.

Lakin yazıçının nənə və babaları bolşeviklərin ağalığından əvvəlki illərdə yüzlərlə yoxsul ailəyə əl tutan, kasıblara kömək edən xeyirxah və səxavətli adamlar kimi yadda qaldıqlarından, qohum-qonşu dar ayaqda bu ailəyə gizlin də olsa kömək edirdilər.

İlyas Əfəndiyevin bir gənc kimi formalaşmasında, onda kitaba, ədəbiyyata, ümumiyyətlə, mütaliəyə maraq oyanmasında anası Bilqeyis xanımın əvəzsiz xidmətləri olmuşdur. O, İlyasa yalnız analıq etməklə kifayətlənməmişdir. Məhəmməd kişi vəfat etdikdən sonra o, müəllimliklə məşğul olmuş, İlyasa yoldaşlıq, həm də atalıq etmişdir.

Gələcəyin məşhur yazıçısı hələ uşaq yaşlarından zəhmətə alışmış, mütaliəyə böyük maraq göstərmişdir. 1921-ci ildə birinci sinfə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi “əla” qiymətlərlə bitirmişdir. 1933-cü ildə Vladimir İliç Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinin əyani şöbəsinə daxil olmuşdur.

1938-ci ildə bu ali təhsil ocağının coğrafiya fakültəsinin qiyabi şöbəsini bitirmişdir.

1938-ci ilin axırlarında Bakıya gələn İlyas Əfəndiyev "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyalarında işləmişdir. İlk mətbu əsəri "Buruqlar arasında" oçerki 1938-ci ilin noyabrında dərc olunmuş, "Berlində bir gecə" adlı ilk hekayəsi "Ədəbiyyat qəzeti"nin 1939-cu il 26 yanvar tarixli nömrəsində çap olunmuşdur. 1939-cu ildə nəşr edilmiş "Kənddən məktublar" kitabı İlyas Əfəndiyevə "ədəbiyyat dünyası"na çıxmaq səlahiyyəti vermişdir. O, 1943-cü ildə Mehdi Hüseynlə birlikdə ilk dram əsəri olan "İntizar" pyesini yazmış və bununla da yazıçının Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) ilə 50 ildən çox bir müddətdə davam etmiş sıx yaradıcılıq əməkdaşlığının əsası qoyulmuşdur.

Vaxtilə bu böyük söz ustadının öz oxucularına aşılamağa çalışdığı əsas keyfiyyətlər - insani borc, vətəndaş vəzifəsi, fərd və cəmiyyətin qarşılıqlı münasibəti, ailə və əxlaq, bəşərilik, millilik problemləri bu gün də aktuallığını, dəyərini qoruyub saxlamaqdadır.

50-60 il bundan əvvəl onun qələmindən süzülən dəyərli sözlər, müdrik kəlamlar bu gün də sevilə-sevilə oxunur, daha böyük aktuallıq, daha böyük məna kəsb edir. Min illər bundan sonra da belə olacaqdır.

İ.Əfəndiyevin bir gənc kimi yetişməsində, mütaliəyə, ədəbiyyata, elmə böyük maraq göstərməsində, ailə tərbiyəsi ilə yanaşı, oxuduğu və dərs dediyi məktəbin

kollektivinin, boya-başa çatdığı bölgənin ictimai-mədəni mühitin böyük rolu olmuşdur. Gənclik illərində böyük həvəslə mütaliə etdiyi "Qızıl Araz" adlı rayon qəzeti, işlədiyi mətbuat orqanları, Bakı ədəbi mühiti də onun formalaşmasına ciddi təsir göstərmişdir. Qeyd edək ki, Azərbaycan Dövlət Radio Verilişləri Komitəsində, Bakı kinostudiyasında, "Azərnəşr"də çalışarkən ədəbi ictimaiyyətlə bilavasitə təmasda olmuş, həyatı dərindən öyrənmiş, dünyagörüşünü daha da artırmışdır. İlyas Əfəndiyev çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkarlardandır. Əgər onun həyat və yaradıcılıq yolunun hər hansı bir ilini, yaxud qısa bir dövrünü ciddi xronoloji ardıcıllıqla izləsək, maraqlı bir mənzərənin şahidi olarıq. Yazıçı eyni dövr ərzində hekayələr yazmaqla yanaşı, istedadlı bir dramaturq kimi də fəaliyyət göstərmiş, irihəcmli roman və povestlərlə bərabər oçerk və məqalələr də ərsəyə gətirmiş, konfrans və qurultaylarda məruzələrlə çıxış etmişdir.

İlyas Əfəndiyev ədəbiyyatın bütün janrlarında kamil sənət nümunələri yaratmışdır ki, bu da yazıçının sənət palitrasının müxtəlif çalarlarından, dünyagörüşünün genişliyi və yaradıcılıq intellektindən xəbər verir.

İlyas Əfəndiyevin zəngin nəsrinə "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" və s. roman və povestləri, dramaturgiyasına "İşıqlı yollar", "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda

bilmirəm”, “Məhv olmuş gündəliklər”, “Qəribə oğlan”, “Mahnı dağlarda qaldı”, “Bağlardan gələn səs” və s. daxildir.

Ədibin qəhrəmanları ülvi məqsədləri, mübarizliyi, xarakterlərinin bütövlüyü, yaşadığı hisslərin, duyğuların təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar. 60-cı illərdə səhnəyə gələn gənclərin püxtələşməsində İ.Əfəndiyevin zəngin dramaturgiyasının böyük rolu olmuşdur.

Əsərlərinin əksəriyyətini sovet dövründə yazmış İlyas Əfəndiyev hakim ideologiyanı heç vaxt tərənnüm etməmiş, sadə insanların həyatını, onların məhəbbətini, arzu və istəklərini böyük ustalıqla qələmə almışdır. Buna görə də onun əsərləri indi də coğrafi sərhədləri adlayaraq, yeni-yeni oxucu auditoriyalarının sevgisini qazanmaqdadır. Belə ki, 1990-cı ildə İstanbul və Ankara teatrlarının səhnələrində “Bizim qəribə taleyimiz” və “Sevgililərin cəhənnəmdə vüsalı” müvəffəqiyyətlə oynanılmışdır. Böyük sevgi ilə qarşılanan bu əsərlər haqqında Türkiyə mətbuatı onlarla sanballı məqalələr vermişdir. 60 ildən çox yaradıcılıq yolu keçmiş İ.Əfəndiyev, 90-cı illərdə də məhsuldar bir yazıçı kimi yazıb yaratmış, təzə pyesləri tamaşaya qoyulmuşdur. Sovet rejimi illərində, partiya qadağaları dövründə yaza bilmədiyi bir sıra mövzuları cəsarətlə ədəbiyyata gətirmiş, onları yeni zamanın kontekstində oxuculara təqdim etmişdir. O, “Hacı Axundun cənnət bağı necə oldu” hekayəsini, “Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı” povestini dərc etdirmiş, “Tənha iydə ağacı”, “Dəlilər və ağıllılar” “Hökmdar və qızı” və s. pyesləri

tamaşaya qoyulmuş, bir sıra yeni kitabları nəşr edilmişdir. Zəngin yaradıcılıq yolu keçmiş, həyatın acılı-şirinli günlərini yaşamış böyük sənətkarımız İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

## *II. Yubiley tədbirlərinin keçirilməsi*

Müasir Azərbaycan ədəbiyyatının böyük bir mərhələsi məhz İlyas Əfəndiyevin yaradıcılığı ilə bağlıdır. İlyas Əfəndiyevin 110 illik yubileyinin respublikamızda bütün mədəniyyət və maarif müəssisələri, eləcə də uşaq kitabxanaları yüksək səviyyədə həyata keçirməlidirlər.

Yubileylə bağlı uşaq kitabxanalarında da İlyas Əfəndiyevin ədəbi irsinin təbliği üçün geniş tədbirlər planı işlənib hazırlanmalı və həyata keçirilməlidir. Çoxsaylı oxucu kütləsinin sorğularını cavablandırmaq məqsədilə kitabxanaçılar həm İlyas Əfəndiyevin əsərlərindən, onun yaradıcılığına və həyatına dair ədəbiyyatdan, həm də onun yubileyi ilə əlaqədar nəşr olunan materiallardan geniş istifadə etməlidirlər.

Yazıçının ədəbi irsinin təbliği üçün ilk növbədə kitab sərgilərindən istifadə olunmalıdır. Ədibin həyatını, yaradıcılığını, haqqında olan materialları təbliğ etmək üçün ayrıca sərgilər təşkil edilməsi də məqsədə uyğundur.

Belə ki, sərgilər *üçün* ***"Ədəbiyyatın əbədiyaşarlıq ünvanı", "İlyas Əfəndiyev: Şeirə sığmayan ömür", "Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar",*** *"**İlyas***

***Əfəndiyev-110”, ”İlyas Əfəndiyev zirvəsi”, ”Həmişə bizimlə olacaq sənətkar”,”Unudulmaz yazıçımız*”** və s başlıqlardan istifadə etmək olar.

Bu sərgilərdə görkəmli şəxslərin İlyas Əfəndiyev haqqında dediyi fikirlərdən, sitatlardan istifadə etmək daha yaxşı olar.

“Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş Odlar diyarında xalqın məhəbbətini qazanmaq , sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Görkəmli sənətkar İlyas Əfəndiyev bu şərəfə nail olmuşdur. Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləri, milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləri bunu parlaq şəkildə sübut edir. Onun yaratdığı obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminik ki, müstəqil Azərbaycanımızın neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır”.

Tərtib olunacaq sərgilərdən birinin təxmini sxemini veririk:







VƏFA XANOĞLAN
İLYAS ƏFƏNDİYEV
VƏ AZƏRBAYCAN
MƏDƏNİYYƏTİ


Yaddaşın
boy çiçəyi
İLYAS ƏFƏNDİYEV
HAQQINDA
XATİRƏLƏR


İlyas
Əfəndiyev
Seçilmiş əsərləri


MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI
İLYAS
ƏFƏNDİYEV
Seçilmiş
əsərləri









[illegible] il. Heydər Əliyev İlyas Əfəndiyevə «Xalq yazıçısı» fəxri adının diplomunu təqdim ed…



İlyas Əfəndiyev 1948-ci ildə.

*Cəfər Cabbarlının ustad varisi*
*İlyasla səhnəyə nur axdı gəldi.*
*Verginin cövhəri, təbin xalisi*
*Bahar sularıtək gur axdı gəldi.*
*Teatr-ən ülvi məbədgah, ehram*
*Ucuz şan- şöhrətə qapısı bağlı.*
*Sənətin əlçatmaz zirvəsi- dram*
*Sıldırımlı yolu qarlı- sazaqlı.*

*Gəncliyin həyatı çağlar çay kimi*
*Əbədi nəğməndir bu axar sənin.*
*Gəncliyin həyatı günəş-ay kimi*
*Gün nurlu, ay bərqli aynan var sənin.*
*Səhrayi- kəbirdə tikan deyilsən,*
*Mehdi var, Sabit var, Ənvər, Mirzə var.*
*Heç kimdən təmənna uman deyilsən*
*Bayrağın sancılmış neçə zirvə var*



İlyas Əfəndiyevin portreti. Rəssam Böyükağa Mirzəzadə.



17 noyabr 1996-cı il. "Hökmdar və qızı" əsərinin ilk tamaşası sona yetib. Artıq İlyas Əfəndiyev özü haqq dünyasındadır.



1962-ci il. Yazıçılar İttifaqında.
Soldan: Həsən Seyidbəyli, Ənvər Məmmədxanlı, İmran Qasımov,
İlyas Əfəndiyev, Mehdi Hüseyn, Sabit Rəhman.





Elçin. 1953-cü il.



1952-ci il Şuşa. Timuçin,
İlyas Əfəndiyev, Elçin.



1954-cü il. Şuşa. Elçin, İlyas Əfəndiyev, Timuçin.




«Azadlıq» («Hüsü Hacıyev») küçəsində 19 nömrəli binada İlyas Əfəndiyevin "Xatirə lövhəsi". Müəllif Natiq Əliyev.



İlyas Əfəndiyev Günay və Humayla.

***Təşkil olunmuş sərgidə aşağıdakı sitatlardan istifadə etmək olar.***

İlyas Əfəndiyevin əsərləri həm səlis, gözəl bədii dilinə, həm dərin məzmununa görə, həm də yüksək sənətkarlığına görə fərqlənir, oxucuya böyük estetik təsir bağışlayır. Onun kitablarında həm körpüsalanların çətin işi, həm neftçilərin qəhrəman əməyi, həm müasir kəndin həyatı, həm də Azərbaycan ziyalıları arasında mənəvi-psixoloji proseslər inandırıcı şəkildə və dərindən əks edilmişdir. Yazıçı öz yaradıcılığında cəmiyyətimizin mənəvi təşəkkülünü və inkişafını diqqətlə izləyir, onun mənasını açıb göstərir, bugünkü həyatımız üçün də, gələcək həyat üçün də nümunə olan adamların parlaq obrazlarını yaradır. O öz sənətkarlığı ilə zəhmətkeşlərin mənəvi tərbiyəsində fəal iştirak edir.

Dünya mədəniyyətinə ölməz dühalar bəxş etmiş Odlar diyarında xalqın məhəbbətini qazanmaq , sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. İlyas Əfəndiyev fədakar əməyi sayəsində bu şərəfə nail olmuşdur. Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləri, milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləri bunu parlaq şəkildə sübut edir. Onun yaratdığı obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminik ki, müstəqil Azərbaycanımızın neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır”.

**Heydər Əliyev- Azərbaycan xalqının ümummilli lideri**

İlyas Əfəndiyev əməkçilərin zəhmət birliyini böyük məhəbbətlə və hərarətlə təsvir edir, onların zəhmətini parlaq və real boyalarla göstərir... Biz «Bahar suları» əsərini onun şeriyyətinə görə sevirik, bir daha inanırıq ki, həyatımızda yalnız maddi nəhənglər deyil, eyni zamanda yeni, zəngin, həm də gözəl bir insan mənəviyyatı yaradılır.

**Səməd Vurğun - xalq şairi**

Azərbaycan sovet şeirinin təməlini qoymuş Süleyman Rüstəmlə Səməd Vurğunun, Rəsul Rzanın arasında kökü dərinliklərə yayılması, gövdənin birliyi, yekparəliyi nöqteyi-nəzərindən bir birlik, vahidlik, budaqların eyni göy üzünə ayrı-ayrı tərəflərdən uzanması nöqteyi-nəzərindən isə ayrılıq vardır. Bir-birinə həm oxşayırlar, həm oxşamırlar. Mirzə İbrahimovla Hüseyn Mehdinin nəsri haqqında da, ustad Cəfər Cabbarlının və İlyas Əfəndiyevin dramaturgiyası haqqında da eyni şeyi söyləmək mümkündür.İlyas Əfəndiyevin sakit fəaliyyəti həmişə oxucu və tamaşaçılar üçün partlayış və güclü sevinc gətirmişdir.

**Nazim Hikmət - Beynəlxalq Sülh Mükafatı laureatı, türk şairi**

İlyas Əfəndiyev hər cür milli məhdudluqdan uzaq bir yazıçıdır. Ədəbiyyatımızın beynəlmiləlçilik, ümumbəşəri ideyalarına sadiq olan ədib, cəmiyyətdə müxtəlif millətlərdən olan insanların necə qardaş kimi əlbir çalışıb, xoşbəxt yaşadıqlarını dövrümüzün ən böyük nailiyyəti kimi təsvir edir.

**Məmməd Arif – akademik**

İlyas Əfəndiyev yenə də öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq, təbii insan psixologiyasını təbii və sadə boyalarla göstərdiyi üçün «Atayevlər ailəsi» pyesi də bizim realist dramaturgiyamızın sevindirici nailiyyətlərindən biridir.

**Mehdi Hüseyn - xalq yazıçısı**

Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstan isə, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir.İlyas Əfəndiyev yaradıcılıqda gözəlliyə, incəliyə, estetik zərifliyə meyl edən yazıçıdır. O, bədii əsər üçün vacib xüsusiyyətlərə- dilin ifadəli və obrazlı olmasına, xarakterlərin canlı və dolğun çıxmasına, süjet və kompozisiya bütövlüyünə ciddi diqqət yetirir, böyük əmək sərf edir, bu da nəticəsiz qalmır, onun əsərlərinin maraqlı, oxunaqlı olmasına kömək edir. Bu əmək və səyin mükafatı isə oxucuların məhəbbətidir ki, İlyas onun azlığından şikayət edə bilməz.

**Mirzə İbrahimov- xalq yazıçısı, akademik**

İlyas Əfəndiyev yaradıcılığı Azərbaycan sovet ədəbiyyatının münbit zəminindən doğan, rişələnən, getdikcə köklənən qoşa qardaş kimi qoşalıqda yaradıcılıqdır. Bu yaradıcılıq istedadlı nasirlə mahir dramaturqu birləşdirib, birlikdə söykək-söykəyə qaldırır... İlyas nəsri onun dramartugiyasına, dramaturgiyası da onun nəsrinə dayaq durur, kömək göstərir. İlyasın nəsri də, dramartugiyası da ahəngdardır, cazibədardır... Sən İlyas nəsrini oxuyursan, istər onun romanı, povesti olsun, istərsə bir-birindən gözəl hekayəsi olsun, heç birisi səni - oxucunu yormur...
İlyas yaradıcılığında dramaturgiya, mənim aləmimdə, fəxri yer tutur. Fəxri yer tutur ona görə ki, biz İlyas dramaturgiyasında böyük dramaturqumuz Cəfər Cabbarlı ənənələrinin mahir davamçısını görürük.

**Süleyman Rəhimov -xalq yazıçısı**

Səhnə xadimlərini və tamaşaçıları cəzb edən, onların hissinə, düşüncəsinə qida verən budur ki, İlyas artıq teatrın təbiətinə, səhnənin sirlərinə yaxşı bələd ola bilmişdir. O, mövzu seçməyi, məntiqli süjet qurmağı, dramatik vəziyyətlər, xarakterlər yaratmağı, öz fikirlərini bəyanat yolu ilə deyil, canlı hadisələrdə, yığcam dialoqlarda, əsl səhnə dili vasitəsilə ifadə etməyi gözəl bacarır.

**Mehdi Məmmədov - xalq artisti, professor**

İlyas Əfəndiyev bir sənətkar kimi həmişə həyatın işıqlı cəhətlərinə xüsusi diqqət verir və qələmə alır. Onun qəhrəmanları dövrümüzün qabaqcıl adamlarıdır. Bu qəhrəmanlar yaşayıb yaratmaqdan, xariqələr yaratmaqdan həzz alırlar. Yüksək mədəniyyət, gözü-könlü tox, halal əməklə ömür sürən, əliəyrilərə, gözüdağınıqlara, vəziyyətdən sui-istifadə edən şöhrətpərəstlərə qarşı barışmaz olan bu adamlar ilk görüşdən oxucu və tamaşaçıların ürəyinə yol tapır, özünü sevdirir.

**Əli Vəliyev - xalq yazıçısı**

Azərbaycan Dövlət Akademik Dram Teatrının son otuz ildəki inkişafını İlyas Əfəndiyevsiz təsəvvür etmək mümkün deyil...
Onun pyeslərində həmişə təzə, təravətli görünən bir müasirlik var. Bu müasirlik isə həyatımızın daxili məzmunundan, onu irəli aparan qəhrəmanların fəaliyyətindən və bu fəaliyyətin konfliktlərindən, poeziyadan doğur... İlyas Əfəndiyevin dramaturgiyasında realizm və romantika, sərt həyat həqiqətləri ilə şeriyyət həmişə vəhdət təşkil edir.

**İsmayıl Dağıstanlı - xalq artisti**

İlyas Əfəndiyev ən çox oxunan, sevilən, özü də heç kimə oxşamayan yazıçılarımızdandır. Onun öz mövzuları, həyat hadisələrinə öz yanaşma yolları və üsulu vardır. Bu, yaradıcılığını məşhur edən problemlərində özünəməxsusluq, orijinallıq güclüdür. Ədib, adətən, hamı üçün aydın və məlum olan həyat problemlərinə müraciət

etməyi sevmir, gerçəkliyin elə həqiqətlərini, elə məsələlərini üzə çıxarmağı bacarır ki, onlar həm də yeni olur, ədəbi maraq oyadır, müasir problemləri barədə düşünənləri hərəkətə gətirir və təsadüfı deyil ki, ictimai müzakirəyə, mübahisəyə səbəb olurlar.

**Kamal Talıbzadə - akademik**

"Bahar suları" əsərinin mövzusu müharibədən sonrakı kəndimizin real həyatından alınmışdır. Burada hadisə və tiplər canlı və həyatidir. Yazıçı canlılığı yaratmaq üçün heç bir boyasını əsirgəməmişdir. Əsərdə sovet adamlarının həyatında ola bilən və ya konfliktlər, tamaşaçını intizarda qoyan səhnələr, bədii cəhətdən təsirli dialoq və monoloqlar vardır. Burada eşq və məhəbbət səhnələri də adamların müasir zövqü ilə əlaqədar verilmişdir... Buradakı adamlar ümumi mənafeyini öz şəxsi mənafeyindən üstün tutan şərəfli əməkdən zövq alan yeni adamlardır.

**Cəfər Xəndan –professor**

"Atayevlər ailəsi" əsərində verilmiş müsbət surətlər əsl mənada xalq nümayəndələridir. Onların mədəni səviyyəcə, zəka və düşüncə etibarilə mənfi surətlərdən nə qədər yüksək olduqlarını isbat etməyə ehtiyac yoxdur...
Dramaturq maraqlı, həyati bir süjet seçmiş, burada insanların əlaqələrini, təbiətlərindəki ziddiyyətləri, rəğbət və mütəqabil münasibətlərini vermiş, yaddaqalacaq obrazlar silsiləsi yaratmışdır.

**Əli Sultanlı - professor**

İlyas Əfəndiyev daima yenilik hissi ilə çırpınan, hər təzə əsərində yeni bir söz deməyə çalışan, müasir gəncliyi düşündürən məsələləri əks etdirən, özünəməxsus xətti ilə başqalarından seçilən qələm sahibidir. Mən onu hələ müharibə illərində yazdığı lirik-romantik hekayələri ilə sevmişəm. Bu sevgi ildən-ilə artmış, heç zaman azalmamışdır. Ona görə ki, İlyas adi həyat hadisələrini olduğu kimi, adi şəkildə deyil, qeyri-adi tərzdə, romantik pafos və lirik incəliklə, bir sözlə - sənətin ecazkar rəngləri ilə verməyi bacaran sənətkardır.

**Bəxtiyar Vahabzadə - xalq şairi, akademik**

İlyas Əfəndiyev müasirliyi dərindən duyan, orijinal, həssas yazıçıdır, onun qələmi, istedadının təkraredilməz xüsusiyyətləri öz təbiiliyi və aydınlığı ilə seçilir. Əsərlərində incə bir lirika, romantik vüsət vardır, dili axıcı, şəffaf və poetikdir. Buraya yazıçının mənəvi aləminin dərinliklərinə baş vurmaq bacarığı da əlavə olunsa, gozümüz önündə İ.Əfəndiyevin yaradıcılığı üçün səciyyəvi olan məziyyətlərin geniş və əlvan mənzərəsi açılır...

İlyasın yaradıcılığı həmişə fəal vəziyyətdədir, daim hərəkət və inkişafdadır, yeni əsərlərlə zənginləşir və dolğunlaşır.

**Əkbər Ağayev - tənqidçi, professor**

İlyas Əfəndiyev müasirlərimizdən yazır. Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində inqilabın qələbəsi və elmi-texniki inkişafla əlaqədar qarşıya çıxan mürəkkəb ictimai-siyasi, iqtisadi-mədəni, mənəvi-əxlaqi problemlərin həlli yolunda çalışan, axtaran müasirlərimizin ictimai fəaliyyəti və daxili aləmləri onun əsas bədii tətbiq hədəfidir.

**Cəlal Məmmədov - yazıçı**

İlyas Əfəndiyev ən aktual mövzularda maraqlı səhnə əsərləri yazan dramaturq kimi məşhurdur. Heç bir statistika tədqiqatı aparmadan deməyə tam əsasımız var ki, Azərbaycan teatrının repertuarındakı əsərlərinin sayı etibarı ilə o, müasir dramaturqlarımız arasında birinci yeri tutur... İ.Əfəndiyev əsərlərində insani borc, vətəndaş vəzifəsi, fərdi və cəmiyyətin qarşılıqlı münasibətləri, ailə və əxlaq problemləri barədə həmişə təravətli söhbət açır, öz qənaətlərini məhz yeni bədii obrazlar vasitəsilə, özünəməxsus orijinal üslubda ifadə edir.

**Bəkir Nəbiyev - akademik**

Onun bütün hekayələri, oçerkləri, dramları, roman və povestləri, kino ssenariləri, məqalələri - tam halda yaradıcılığı müasir həyatın duru və şəffaf çeşməsindən su içmişdir... Onun bütün əsərlərində əsas, aparıcı problem müasir insan, bu insanın psixoloji, əxlaqi cəhətdən formalaşması, onun davranışı, fikir və düşüncələri, mənəvi dünyasıdır.

**Qulu Xəlilov - professor**

Cəsarətlə deyə bilərəm ki, böyük dramaturqumuz Cəfər Cabbarlıdan sonra teatrımız üçün yananlardan biri də İ.Əfəndiyev olmuşdur. Onun bütün əsərlərində... al-əlvan rənglərə, naxışlara rast gəlirik... O, zəngin təfəkkürə, geniş müşahidə qabiliyyətinə malik sənətkarlardandır. Həm də mən deyərdim ki, elə bəstəkar qəlbli sənətkardır. Onun dram əsərlərindəki müsbət obrazlar təkcə xarakterləri ilə deyil, bəzən lirik, kövrək mahnıları ilə də yadda qalırlar.

**Səid Rüstəmov -xalq artisti, bəstəkar**

İlyas Əfəndiyev böyük dramaturq və nasirdir. Onun müasir Azərbaycan ədəbiyyatının və teatrı sənətinin inkişafında müstəsna xidməti var. Ən çox oxunan, sevilən Azərbaycan yazıçılarından biridir...

Elə sənətkar var ki, yaratdığı əsər, fərqi yoxdur, pyes olsun, tablo olsun, musiqi olsun, insanı düşündürür, onun hisslərinə hakim kəsilir, gözəlliklər aləminə çəkib aparır, haqq-ədalət uğrunda mübarizəyə səsləyir, həqiqəti axtarıb tapmaqda ona kömək edir. İlyas Əfəndiyev də belə sənətkarlardandır:

İlyas Əfəndiyev qüdrətli sənətkar idi.
İlyas Əfəndiyev qayğıkeş ata idi.
İlyas Əfəndiyev gözəl baba idi.
İlyas Əfəndiyev yaxşı dost idi.

Mənə elə gəlir ki, sənətsevərlər İlyas Əfəndiyevin yoxluğu ilə qüdrətli sənətkar itiriblər.

**Tofiq Quliyev- xalq artisti, bəstəkar**

İlyas Əfəndiyev insanların şüurunda və psixologiyasında baş verən təbəddülatı əks etdirməyə çalışan, psixoloji ziddiyyət və çarpışmaları əsərlərin mərkəzi konfliktinə çevirən yazıçıdır. Onun əsərlərində, xüsusilə pyeslərində xarici toqquşmalar, zahiri effekt xatirinə düzəldilmiş səhnələr yoxdur. O, həmişə qəhrəmanların səciyyəsini, onların həyata, ictimai hadisələrə münasibətini psixoloji cəhətdən araşdırır, çox zaman ilk baxışda xırda, intim görünən konfliktləri genişləndirib siyasi məna və mahiyyətlə zənginləşdirir.

**İsmayıl Şıxlı - xalq yazıçısı**

Mən İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanının oxucular və ədəbi ictimaiyyət tərəfindən hərarətlə qarşılanmasının əsas səbəbini onun bədii keyfıyyətində, sənətkarlıqla yazılmasında görürəm. Xalqı narahat edən problemlərə toxunmaq, onlardan bədii əsərlərdə vətəndaşlıq məsuliyyəti ilə söz açmaq vacib şərtlərdəndir və bu, ədəbiyyatın zəruri vəzifələrindən biridir...Romanda hadisələr dramatik gərginlik və ardıcıllıqla bir-birini izləyir, dərin maraq hissi ilə oxucunu arxasınca aparır. Söz ustadlarının yaradıcılığı bir-birindən fərqləndiyi kimi, onların böyük sənətin zirvələrinə ucalmaları da müxtəlifdir. İlyas Əfəndiyevin ədəbi debütü daima fərəhli hadisə olmuşdur. İlyas Əfəndiyev elə nadir insanlardan və şəxsiyylərdən idi ki, ömür boyu siyasiləşmiş bir cəmiyyətdə yaşaya-yaşaya o cəmiyyətin, o

quruluşun məhvə məhkum ənənə və əxlaq çərçivəsinə sığışmadı. Müasirlik böyük şərtdir.

**Hüseyn Abbaszadə - əməkdar incəsənət xadimi, xalq yazıçısı**

Yazıçı İ.Əfəndiyev son illər nəsr sahəsində daha məhsuldar və səmərəli işləmişdir. Onun povest və romanları, xüsusən, əxlaqi-psixoloji problemlərin qoyuluşu və həlli sahəsində, müasir nəsrimizin axtarış və nailiyyətlərini ən yaxşı əks etdirən əsərlərdəndir. Sevindirici haldır ki, İ.Əfəndiyevin son pyesi də bu nəsrin nailiyyətləri zəminində və səviyyəsində yazılmışdır. Məhz buna görədir ki, "Sən həmişə mənimləsən" pyesi ədəbi həyatımızda yeni söz, müvəffəqiyyətli bir hadisə olub lirik, perspektivli dramaturgiya, müasir psixoloji teatr yaratmaq yolunda yaxşı bir təşəbbüs, təcrübə kimi də səslənə bilmişdir. "Azərbaycan tarixi barədə klassik sənədlər – yeddi "Qarabağnamə" var. Bütünlükdə İlyas Əfəndiyevin yaradıcılığını mən səkkizinci "Qarabağnamə" hesab edirəm.

**Yaşar Qarayev - AMEA-nın müxbir üzvü**

Müasirlik və novatorluq İlyas Əfəndiyev yaradıcılığının mühüm məziyyətlərindəndir. Yenilik hissi onda qüvvətlidir. O, daim axtarışda olan məzmun, mövzu və bədii formalarla ədəbiyyatımızı zənginləşdirməyə çalışan yazıçılardandır. İlyas Əfəndiyev romantik üslubda yazılmış hekayə və povestlərin, psixoloji dramların və lirik

səpkili realist romanların müəllifidir. Liriklik, romantika, psixoloji təhlil onun yaradıcılıq üslubunun ana xəttidir.

**Seyfulla Əsədullayev - professor**

Ümumiyyətlə, bir oxucu kimi mənə elə gəlir ki, İlyasda lirik əhval-ruhiyyə dəmir ağacın həyat eşqi kimi güclüdür. Amma yaxşı ki, heç vaxt lirikaya nə isə lirik bir səhnə və yaxud vəziyyət yaratmaq xatirinə meyl etmir. Onun lirikası qəhrəmanların psixoloji vəziyyəti ilə və bilavasitə yaranmış zəruri situasiya ilə bağlı olur.

**Əli Zeynalov - xalq artisti**

İlyas Əfəndiyevin yaratdığı surətlərdə bir kövrəklik, yanğı və yanıqlıq var. «Unuda bilmirəm»də Nərmini xatırlayın. Görün bu qız necə də məhəbbəti dünyada hər şeydən üstün tutur. Onun üçün məhəbbət həyat deməkdir. Bu rolda mən 250 dəfədən çox səhnəyə çıxmışam. Hər dəfə də Nərmindən ayrılıb Amalya olanda təəssüflənmişəm. Həyatdan götürülmüş belə obrazları qələmə alan İlyas Əfəndiyev, şübhəsiz ki, ürəyinin bütün hərarətini onlara bəxş etmişdir.

**Amalya Pənahova - xalq artisti**

İlyas Əfəndiyev bütöv bir kitabxanadı. Ədəbi məktəbdi. Akademik teatrın binası mərmər sütunlar üstə yox, bəlkə İlyas Əfəndiyevin çiyinləri üstə qərar tutmuşdu. İlyas Əfəndiyev teatrı bu illərdə Azərbaycan teatrının sinoniminə dönmüşdü. O, teatra yeni üslub, yeni ab-hava, yeni xarakterlər gətirdi, öz müasirlərini özlərinə göstərdi, tariximiz-taleyimiz onun pyeslərində epik-dramatik lövhələrdə yenidən canlandı. Əlli illik bir dövrdə tamaşaçılarda vətəndaşlıq zövqü, ictimai əxlaq tərbiyə etdi. Haqsızlığa, zülmə qarşı çıxdı, ədalətin tərəfində durdu. Müstəqilliyimiz yolunda ədəbi döyüşlərə girən böyük sənətkar, səhnədən millətə üz tutub milli mənliyi, mənəvi paklığı təbliğ etdi. İlyas Əfəndiyev teatrı çağırış teatrı oldu.

**Nəriman Həsənzadə - xalq şairi**

İrəliyə baxın, əziz İlyas müəllim! Və inanın ki, nə qədər səhnəmiz var, o heç vaxt Nərminsiz, Kamransız, Nargiləsiz, Natəvansız- qəribə talelər yaşayan, mahnıları ulu dağlarda qalan insanlarsız olmayacaq. Bu qəhrəmanlar, bu əsərlər Sizi zaman-zaman yaşadacaq. Xoşbəxt ruhunuz həmişə səhnəmizin divarları arasında, başımızın üstündə olacaq!
Siz həmişə bizimləsiniz!

İlyas Əfəndiyev Allahın ona bağışladığı qənirsiz istedadı xalqından, millətindən əsirgəmədi. Yazıçı Allahın neməti olan yaradıcılığını bol-bol, qana-qana verdi insanlara.

**Əzizə Cəfərzadə -professor, AYB-nin üzvü**

İlyas Əfəndiyev uzun bir ömür yaşasa da, mənən gənc idi, gəncliklə ünsiyyətdən doymazdı. Onun fikir və düşüncələri gənclik həvəsi ilə sıx- sıx dolu idi. İlyas müəllim ruhən bu gün də gəncliklə bir aradadı

**Günay Əfəndiyeva -yazıçının nəvəsi, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının 1-ci katibi**

Hüseyn Caviddən, Səməd Vurğundan, Cəfər Cabbarlıdan sonra Azərbaycan səhnəsi məhz İlyas Əfəndiyev dramaturgiyasının hesabına öz inkişaf yolu ilə gedə bilib. İlyas müəllim ağ vərəqə müqəddəs məkan kimi baxırdı və bu müqəddəs məkanda xalqımızın tarixi, milli dəyərləri ilə baş -başa yaşayırdı...

**Atababa İsmayıloğlu -teatrşünas**

İlyas Əfəndiyev Azərbaycan xalqının azadlığı, müstəqilliyi uğrunda vuruşan, çarpışan, qələbə çalan fədailərdən biridir. İlyas Əfəndiyev yaradıcılığı bir güzgüdür, bu güzgüyə bax, özünü tanı, gözəlliklərini də gör, çirkinliklərini də. Uğurlarını da gör, qüsurlarını da!

**Zəlimxan Yaqub -xalq şairi**

İlyas Əfəndiyev quruluşların təpkisini, zillətini görən, həyatın ziddiyyətləri içərisində yazıçı mənliyiini qoruya bilən, kişi qətiyyətini gözləyən, əyilməyən, sözünü dəyişməyən, gündə bir əqidə libası geyinməyən, həm həyat, həm də öz həqiqətinə sadiqliyi və qəlb böyüklüyü ilə seçilən bir şəxsiyyət olub. **Flora Xəlilzadə- jurnalist**

***Təşkil edilmiş yubiley sərgisinin qarşısında silsilə tədbirlər (söhbətlər, ədəbiyyat bülletenləri, biblioqrafik icmallar və s.) keçirmək planlaşdırılmalıdır.***

Kiçikyaşlı oxucularla yazıçının "**Zəmidə bir turac səslənirdi", "Qırçı və qırmızı çiçək", "Ceyran ovu"** kitabları əsasında ucadan oxular, söhbətlər, səhnəciklər təşkil etmək olar. Yazıçının hekayə janrında yaratdığı sanballı nümunələr daim oxucu marağı və rəğbəti ilə qarşılanmış, dönə - dönə nəşr edilmiş, dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. Böyük ədibin bu hekayələri estetik dəyərlərinə görə öz müəllifinə Azərbaycan ədəbiyyatında qibtə olunacaq bir mövqe qazandırmışdır. Yazıçının lirik – psixoloji yaradıcı təxəyyülünün məhsulu olan hekayələrə lakonizm, humanizm yüksək insanpərvərlik xasdır. Yazıçının uşaqlar üçün qələmə aldığı **"Zəmidə bir turac səslənirdi**..." hekayəsi də bu müvzuda yazılmışdır.

**Aparıcı: Bir halda ki, s**öhbət İ. Əfəndiyevin "Zəmidə bir turac səslənirdi" hekayəsindən düşdü, onda gəlin məktəbli oxucularımızın bu hekayə əsasında səhnələşdirdikləri tamaşaya baxaq.

*Səhnə hekayəyə uyğun dekorasiyalarla bəzədilir. Səhnəyə aparıcı, İlyas və Həsən rollarının ifaçıları çıxırlar. Aparıcı tədbir iştirakçılarına hekayənin giriş hissəsinin qısa məzmununu danışır.*

**Aparıcı**: İlyas ilə Həsənin atası ovçu idi. Ataları başlarına gəlmiş işlər barəsində o qədər maraqlı nağıllar danışmışdılar ki, uşaqlar da ovçu olmaq xəyalına

düşmüşdülər. Lakin onların nə tüfəngləri var idi, nə də ov itləri. Bunların əvəzində ala - bəzək iplərdən toxunmuş sapandları var idi. İlyasgilin evlərinin arxasındakı zəmidə bir turac peyda olmuşdu, səhər-axşam hey oxuyurdu.

*Bir axşam Həsən İlyasgilə gəlir.*

*Səhnədə İlyas və Həsən əllərində ala-bəzək sapandları ilə görünürlər.Yaxınlıqdan turac səsi eşidilir.*

**Həsən:** İlyas gərək , o turacı sabah tapıb ovlayaq.
**İlyas:** Axı atamgil indi heç ova getmirlər, deyirlər, quşların bala çıxaran vaxtdır.
**Həsən:** Məgər quşların hamısı birdən bala çıxarır?
***Aparıcı:*** *İlyas etiraz etdi, turac ovuna getmək istəmədi .Amma... Həsən onu yoldan çıxardı. O da razı oldu.*
**Aparıcı**: Səhər uşaqlar balaca heybələrinə yumru daşlar yığdılar, gəlib zəmidə gizləndilər, turacın oxumasını gözlədilər. Quş qəfildən uşaqların ayaqlarının altından pırıltı ilə uçdu. Həsən onu nişan aldı, sapandını tovlayıb bir ucunu əlindən buraxdı. Turac daş kimi yerə düşdü. Tez də ayağa qalxıb ətrafa baxdı, kolun altına girdi.
**İlyas**: Yazıq, canını bizdən qurtarmaq üçün bu balaca kola pənah gətirdi. Bu mənzərəni heç vaxt unutmayacağam.
**Aparıcı:** Turacın körpə balası kolun altındakı yuvada idi. Yumurtadan təzəcə çıxmış bala turac anasına baxır, zəif səslə civildəyirdi. Sanki deyirdi: ”Ana, bəs mənim üçün gətirdiyin yem hanı?” Yaralı turac isə bir ayağının üstündə dayanıb ürkək nəzərlərlə gah uşaqlara , gah da balasına baxırdı.

**İlyas**: Yazıq quşcuğaz! Sınmış ayağınla körpə balana necə yem tapıb gətirəcəksən? Bəs bu gecə o, nə yeyəcək?

**Aparıcı:** Bu hadisə uşaqlara çox pis təsir etdi. Onlar çox məyus oldular.

**Həsən**: Yaxşı iş görmədik.

**İlyas:** Mən sənə dedim axı, indi quşların bala çıxaran vaxtıdır.

*Aparıcı: Həsən də etdiyi hərəkətə görə çox narahat idi. Amma özünü sındırmadı.*

**Həsən**: Keçib.

**İlyas:** Bəs bunlar necə olacaq?

**Həsən:** Aparaq evə.

**Aparıcı:** Uşaqlar körpə turacı və yaralı anasını ehtiyatla götürüb evə gətirdilər. Onlar üçün qəfəs düzəltdilər. Qabaqlarına dən səpdilə, su qoydular.

*Səhnədə İlyasın nənəsi görünür.Uşaqlar əhvalatı ona deyiblər. İlyasın nənəsi sınıqçıdır. O, quşun sınmışı ayağını sarıyır, uşaqları da yaxşıca məzəmmət edir. O gecə evin arxasındakı zəmidən turac nəğməsi eşidilmədi. Uşaqlar yaman kədərləndilər. Heç belə kədərlənməmişdilər...*

*Səhnəciyin sonunda uşaqlar baş əyib səhnədən ayrılırlar. Aparıcı bu hekayənin nə məqsədlə yazıldığını izah edir, uşaqların bu hekayədən hansı nəticə çıxardıqlarını soruşur. Uşaqlar hekayəyə öz münasibətlərini bildirirlər.*

**Aparıcı:** Sevimli yazıçımızın bu kiçik hekayəsində çox böyük məna var. Bu hekayə hər birimiz üçün ibrət dərsi olmalıdır. Uşaqlar, gəlin biz də heç bir canlıya

toxunmayaq, onların həyatlarını alt-üst eləməyək. Axı onların da balaları, ailələri var.

İlyas Əfəndiyev bu hekayəsində, eləcə digər uşaq hekayələrində həyata uşaqların gözü ilə baxmış, əməksevər və namuslu adamları, üstündə gəzdiyi vətən torpağının gözəlliklərini təsvir və tərənnüm etmiş, balaca oxucuları ilə onların başa düşə biləcəyi dildə danışmışdır. Sadəlik, aydınlıq, yığcamlıq bu hekayələrin əsas xüsusiyyətlərini təşkil edir.

İlyas Əfəndiyev ədəbiyyat tariximizə uşaq yazıçısı kimi daxil olmasa da balalarımız üçün bir sıra maraqlı hekayələr yazmışdır. Ədibin balaca oxucular üçün yazdığı əsərləri "Qoruqlarda", "Hekayələr", "Zəmidə bir turac səslənirdi", "Qırçı və qırmızı çiçək", "Ceyran ovu" adlı kitablarında toplanmışdır.

İlyas Əfəndiyevin uşaq ədəbiyyatının inkişafındakı xidmətləri iki cəhətdən diqqəti cəlb edir. Bunlardan biri, yazıçının uşaqlar üçün orijinal bədii əsərlər yaratması, digəri isə uşaq ədəbiyyatının inkişafı, vəziyyəti və onun nəzəri problemləri ilə əlaqədar sürdüyü elmi - nəzəri mülahizələridir.

Yazıçının uşaq əsərləri **arasında *"Yasəmən ağacı", "Almurad baba", "Ceyran ovu", "Murad dayının sevinci", "İz ilə", "Zəmidə bir turac səslənirdi", "Yaylaq qonşumuz"*** və s. hekayələri daha çox diqqəti cəlb edir. Kənd həyatından söhbət açan bu hekayələrin həcmi kiçik, dili sadə və rəvandır. Yazıçı uşaq qəlbini ələ almağa, onu düşünməyə və həyəcanlandırmağa çalışır. Müəllif yaxşı

başa düşür ki, kiçik və ortayaşlı uşaqlar təbiət hadisələri, heyvanlar aləmi ilə daha çox maraqlanırlar. Buna görə də bu mövzuların təsvirinə geniş yer verirlər.

Yazıçının uşaqlar üçün yazdığı hekayələrində əmək mövzusu mühüm yer tutur. ***"Zəhmətsiz gözəllik yoxdur" fikrinə əsaslanan yazıçı "Almurad baba", "Qaşqa dayın öyrədilməsi", "Murad dayının sevinci", "İz ilə"*** və başqa hekayələrində uşaqlara bu ideyanı təlqin etməyə çalışmışdır.

Uşaqlar təbiət hadisələri ilə əlaqədar söhbətlərə, yağışın yağması, göyün guruldaması, çayların daşması, Ayın və Günəşin tutulması, eyni zamanda heyvanlar aləmilə əlaqədar hadisələrə qulaq asmağı çox sevdiklərindən, yazıçı hekayələrinin müəyyən hissəsini bu məsələlərə həsr etmişdir.

Yazıçının diqqətini cəlb edən hekayələrindən biri də "**Yasəmən ağacı"** adlanır. Bu hekayəsində yazıçı məktəblilərin mühüm vəzifələrindən olan yaşıllıqların salınması, ağac və gül kollarına qulluq edilməsi, quşların mühafizəsi məsələlərinə toxunmuşdur. Təbiət gözəlliklərinə qarşı qayğıkeş və diqqətli olmağı təbliğ edən İlyas Əfəndiyev yasəmən ağacının budağını sındıraraq bülbülün yuvasını dağıdan Cəfər və Nadir kimi nadinc, dəcəl uşaqları tənqid edir. Həmin xoşagəlməz hadisəni görən Aslan müəllim uşaqlara deyir: "Biz dünyaya, onu daha da gözəlləşdirmək üçün gəlmişik, biz onun gözəlliklərini məhv etmək üçün doğulmamışıq." Bu

sözlər bu gün də aktualdır. Ekoloji böhran keçirən Yer kürəsi bu gün insan qayğısına möhtacdır.

İlyas Əfəndiyev həm də uşaq ədəbiyyatının inkişafı barədə bir sıra maraqlı elmi – nəzəri məsələlər irəli sürmüş, uşaq ədəbiyyatında olan çatışmamazlıqları, gözə çarpan nöqsanları qeyd etmişdir. Yazıçının mülahizələrinə görə uşaq ədəbiyyatında gözə çarpan nöqsanlar aşağıdakılardır:

1. Mövzu məhdudluğu.
2. Yadda qalan uşaq obrazlarının azlığı.
3. Tarixi keçmişimizin zəif təsviri.
4. Elm və texnika yeniliklərinin ədəbiyyatda bəsit işıqlandırılması.
5. Uşaq pyeslərinin dayazlığı.
6. Uşaq əsərlərinin bədii tərtibatının və nəşrinin çox aşağı səviyyədə olması.

Tədbirlər zamanı bu fikirlərə müasir baxımdan yanaşılmalıdır. Bu isə kitabxanaçılardan xüsusi bilik və bacarıq tələb edir.

İlyas Əfəndiyevin yubileyi münasibəti ilə təşkil olunacaq tədbirlərdən biri də **sual-cavab gecələri** və **ya ədəbi viktorinalar** ola bilər. "İlyas Əfəndiyev yaradıcılığında vətənpərvərlik" , "İlyas Əfəndiyevin romanları", "Bu surətləri tanıyırsınızmı?", "İlyas Əfəndiyev və teatr" və s. mövzularda sual – cavab gecələri, viktorinalar təşkil etmək olar. Yaddan çıxarmaq lolmaz ki, belə tədbirlərin keçirilməsində əsas məqsəd kitab təbliği olmalıdır. Eyni

zamanda kitabxanaçı bilməlidir ki, yazıçının hansı əsərləri oxucuların bədii zövqünün formalaşmasına kömək edir.

İlyas Əfəndiyevin ədəbi irsinin təbliği üçün daha böyük vaxt tələb edən tədbirlərdən – **oxucu konfranslar**ından da istifadə etmək olar.

İlyas Əfəndiyevin ədəbi irsi zəngindir. Buna görə də oxucu kütləsinin dərin marağına səbəb ola bilər. Yubilyarın ayrı-ayrı əsərlərinin, eləcə də ümumi mövzu altında oxucu konfranslarının keçirilməsi mümkündür. Məsələn: "İlyas Əfəndiyevin əsərlərində vətənpərvərlik məsələləri", "İlyas Əfəndiyevin əsərlərində Qarabağ mövzusu", "İlyas Əfəndiyevin Azərbaycan dramaturgiyasında rolu" və s. Belə konfransların keçirilməsi üçün bir ay müddətində hazırlıq işləri görülməlidir.

Kitabxanada Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan, Xalq yazıçısı İlyas Əfəndiyevdən bəhs edən ədəbiyyatların icmalını keçirmək, bu yazıçının yaradıcılığından bəhs edən diskussiyalar da təşkil etmək olar. İcmal və diskussiyaların məktəblərdə yuxarı sinif şagirdləri arasında keçirilməsi məsləhətdir. Diskussiyalarzamanı tanınmış qələm sahiblərinin İlyas Əfəndiyev haqqındakı məqalələrdən söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir.

Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də müsabiqələrdir. Bildiyimiz kimi, İlyas Əfəndiyev bir-birindən maraqlı hekayələrin, əsərlərin, pyeslərin müəllifidir. Müsabiqə zamanı həmin hekayələrə,

əsərlərə, pyeslərə uşaqlar tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Ən yaxşı rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "İlyas Əfəndiyevin yaradıcılığı müasir gəncliyin gözü ilə" adlı oxucular konfransı da təşkil etmək mümkündür. Konfransdan əvvəl onun proqramı tərtib edilməli, konfransın keçiriləcəyi vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfransda İlyas Əfəndiyevin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

**Oxucu konfransının planını sizə təqdim edirik:**

1. Giriş hissə (İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında məruzə)
2. İlyas Əfəndiyevin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların İ. Əfəndiyevin müxtəlif əsərləri ətrafında müzakirələri. Yazıçının dram əsərlərindən bir parça səhnələşdirilir.
4. Konfransın yekunu.

Oxucularımızın sevimli yazıçımız haqqındakı fikirlərini öyrənmək məqsədilə anket sorğularının keçirilməsi də məqsədə uyğundur.

İlyas Əfəndiyevin yubileyi ilə əlaqədar il ərzində kitabxanalar **"İlyas Əfəndiyev 110"," Ədəbiyyatın əbədiyaşarlıq ünvanı "  başlığı altında məruzələr** təşkil edə bilərlər. Məruzəçilər əvvəlcədən seçilməlidir. Kitabxanaçılar, ədəbiyyat müəllimləri, yuxarı sinif şagirdləri məruzəçi ola bilərlər. Onlar İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında geniş məlumatlara malik olmalıdırlar.

"**İlyas Əfəndiyevin həyat yolu", "İlyas Əfəndiyev nəsrinin uğurları", "Povest və romanlarında müasir həyatın inikası", "Tarixi simaların səhnə həyatı", "Ədəbiyyat haqqında düşüncələri", "Uşaq hekayələri"** və s. məruzə mövzuları ola bilər.

**Kitabxanalarda keçirilən tədbirlərdən biri də ədəbi – bədii gecələrdir.**

Gecəyə İlyas Əfəndiyevin oğlu xalq yazıçısı Elçin Əfəndiyev və filologiya elmləri doktoru, əməkdar incəsənət xadimi Timurçin Əfəndiyev, həmçinin yazıçının yaradıcılığı ilə yaxından tanış olan şair, yazıçı, filoloqlar, teatrşünaslar dəvət oluna bilər. İlyas Əfəndiyev irsinin təbliği üçün ədəbi – bədii gecələrin keçirilməsi daha vacibdir. Bu tədbir müxtəlif adlar altında keçirilə bilər.

**"Ədəbiyyatın əbədiyaşarlıq ünvanı", "İlyas Əfəndiyevin romanları", "İlyas Əfəndiyevin dramaturgiyası", "Həmişə bizimlə olacaq sənətkar", "İlyas Əfəndiyev zirvəsi", "Bir zirvənin ünvanı" və s.**

Tədbir iki hissəli olmalıdır. Birinci hissədə İlyas Əfəndiyevin həyat və yaradıcılığı haqqında məruzə olmalı, çıxışlar dinlənilməlidir. Tədbirin ikinci hissəsi isə bədii məna kəsb edir. Belə tədbirlərdən birini- “**Bir zirvənin ünvanı**” adlı ədəbi – bədii gecə üçün hazırlanmış ssenarini sizə təqdim edirik.

***İlk öncə tədbir iştirakçılarına görkəmli yazıçı İlyas Əfəndiyevdən bəhs edən ”Şöhrəti xalq bağrından rişələnən ustad sənətkar” adlı slayd təqdim olunur. Sonra aparıcılar səhnəyə çıxıb xalq yazıçısı İlyas Əfəndiyevdən bəhs edən ədəbi bədii gecəni açıq elan edirlər.***

**1-ci aparıcı**: Salam, əziz və hörmətli tədbir iştirakçıları. Xoş gördük sizi. Xalq yazıçısı, xalqımızın sevimlisi İlyas Əfəndiyevin 110 illik yubileyi ilə əlaqədar təşkil olunmuş bugünki tədbirimizə xoş gəlmisiniz. İlyas Əfəndiyev xoşbəxt sənətkarlardandır ki, daim oxucuların, tamaşaçıların qəlbində yaşayır. Qətiyyətlə deyə bilərik ki, İlyas Əfəndiyevin görkəmli nasir və dramaturq kimi şöhrəti xalq bağrından rişələnib.Ona görə də o, əbədi ömür qazanmış sənətkarlarımızdandır.

**2-ci aparıcı**: Bəli, sənətdə müxtəlif zirvələr var... Onlardan biri də İlyas Əfəndiyev zirvəsidir. Bu zirvədə parlayan istedad günəşi illər ötdükcə dumanları,qaranlıqları parçalayıb, saçları badam ağaclarının çiçəklərinə bənzəyən, mehriban çöhrəli bir insanın, görkəmli yazıçının, dramaturqun ömür, yaradıcılıq yollarını işıqlandırıb. Bu zirvədə sənət

şəlalələri çağlayıb, ilham bulaqları axıb... Əbədiyyətə qovuşub. Əbədi aləmdə öz nuru ilə hələ də işıq saçır, gənc yazarların gələcək yollarını işıqlandırır.

**1-ci aparıcı**: İlyas Əfəndiyev zirvəsindən baxırıq... Gözlərimiz önündə bir - birindən əsrarəngiz mənzərələr, təbiət lövhələri canlanır...1939 - cu ildə onun "Kənddən məktublar" adlı ilk povest və hekayələr kitabı nəşr olundu. Bu kitab yazıçıya böyük şöhrət gətirdi, İlyas Əfəndiyev zirvəsinə ilk cığır oldu. Sonra bu cığır aydın yollara çıxdı. Bu yollar zirvələrə qalxdı. Görkəmli söz ustadı Azərbaycanın xalq yazıçısı adına layiq görüldü. Respublika Dövlət Mükafatı laureatı, "Şöhrət" ordeni ilə mükafatlandırıldı.

**2-ci aparıcı**: Zirvə yolları ilə addımlayırıq. Bu yollarda qarşımıza Nərmin, Kamran, Alxan, Sədəf, Adil, Xosrov, Səriyyə, Atayev, Həsənzadə, Natəvan, Nargilə, Valeh, Sarıköynək obrazları... çıxır... Bu yollar bizi "Söyüdlü arx"la, "Körpüsalanlar"la görüşdürür. Addımladıqca "Dağlar arxasında üç dost" əl edib bizi salamlayır. Bu yollar məhəbbətdən yaranmış yollardır. Bu yollar bizi sevməyə, sevilməyə, dostluğun, məhəbbətin qədrini bilməyə, səadəti göz bəbəyi kimi qorumağa çağırır.

**1-ci aparıcı:** İlyas Əfəndiyev zirvəsindən baxırıq. Bu zirvə bizi O teatra - görkəmli sənətkarın bahadır çiyinləri üstündə çiçəklənən teatra- Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına səsləyir...

Bu teatrda dramaturqun "İntizar" ına son qoyuldu. Bu onun səhnəyə ilk addımı idi. Bu əsər "İşıqlı yollara" çevrildi. "Bahar suları" aşıb – daşdı. "Məhv olmuş

gündəliklər" yenidən dilə gəldi. "Dağlardan gələn səs" bizi xəyallardan ayırdı. Bu teatrda "Qəribə oğlan"ın sərgüzəştləri ilə tanış olduq. "Natəvan"ın faciəsindən burada söz açıldı. "Şeyx Xiyabani" nin azadlıq uğrundakı mübarizəsi burada canlandırıldı...

**1-ci aparıcı**: Bu teatrın səhnəsindən "Unuda bilmirəm", "Mahnı dağlarda qaldı" nidaları eşidildi. "Büllur sarayda" başverən hadisələr insanları düşündürdü, həyacanlandırdı...
"Bizim qəribə taleyimiz" gözlərimiz önündə lirik bir mahnıya döndü. "Sevgililərin cəhənnəmdə vüsalı" qorxulu nağıla, əfsanəyə çevrildi. İlyas Əfəndiyev zirvəsindən baxırıq... Yazıçı, dramaturq, gözəl insan haqqında deyilmiş sözləri eşidirik... "İlyas Əfəndiyev öz gözəl əsərləri ilə dramaturgiyamızda cığır açdı. "

**2-ci aparıcı**: "Əgər dram teatr bir üzükdürsə, İlyas Əfəndiyevin pyesləri bu üzüyün qiymətli daşıdır"... O, əsil sənət fədaisidir..."Unudulmaz yazıçı-dramaturqun sağlığında deyilən bu qiymətli sözlər bu gün də öz dəyərini qoruyub saxlayır...
Öz- özümüzə deyirik: Kaş 110 yaşlı sənətkarımız bu gün də yaşayaydı...İlyas Əfəndiyev zirvəsindən baxırıq... Bizə elə gəlir ki, yox, bizə elə gəlmir, həqiqətən bu zirvənin ətrafında İlyas Əfəndiyevin ruhu dolaşır... O ruhun səsini eşidirsiniz? Eşidirsiniz? O ruh bu gün azad olunmuş torpaqlarımıza, Qarabağımıza baxıb sevinir və şəhidlərimizə ruhunuz şad olsun deyir. O səs sizin ürəyinizin səsinə qarışıb... Bir görün necə vurur ürəyiniz?!

**1-ci aparıcı**: Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ
Dünya cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.
Yaddan çıxmaz torpağın
Taleyini yıxanlar
İlahi bir səs deyir:
Sən səbr eylə, yazan var.
Yazan var sözlərini
Qəlbinə, ürəyinə
Halallıq qatılıbdır
Bu xalqın çörəyinə.
Eh ey!
Dayan, səs gəlir.
Geriyə baxmayın övladlarım!

Prezidentimizin uzaqgörən siyasəti, igid oğullarımızın şücaəti nəticəsində o torpaqlar geri qayıtdı. Ölməz sənətkarımızın ruhu rahatlıq tapdı. Gəlin İlyas Əfəndiyevin həyatından bəhs edəm xronikaya nəzər salaq.

**2-ci aparıcı:** İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 28-də Qaryagində (indiki Füzuli şəhəri) tanınmış və hörmətli tacir ailəsində anadan olmuşdur. Nəsilliklə oxumuş ruhani və varlı tacir ailəsindən çıxmış Məhəmməd kişi 1884-cü ildə anadan olmuşdur.Onun atası və babası bütün Qarabağda tanınan, kasıblara, yoxsulara əl tutan, xeyirxah və alicənab adamlar idilər. Bu ailənin bir

qolu tacir nəslinə mənsub olub alqı-satqı işlərilə məşğul olmuşdur. Digər qolu isə ruhani təhsili almış, savadlı axund və üləmalardan ibarət idi.

**I aparıcı**: Əfəndiyevlər ailəsi Sovet hakimiyyəti dövründə, 30-cu illərdə ciddi təqiblərə məruz qalmış, onların ata-baba mülkü əllərindən alınmış, ailənin bəzi üzvləri "xalq düşməni" kimi güllələnmiş, bəziləri həbs edilərək vətəndən uzaqlara sürgün olunmuşdur. Yazıçının atası Məhəmməd Əfəndiyevin evi, böyük mülkü, bağı zəbt edilmiş, "səs hüququndan" məhrum olunmuşdur. Ağır sıxıntı və ehtiyac içərisində yaşayan Məhəmməd Əfəndiyevin ailəsi mağazadan ərzaq malları, pal-paltar almaq hüququndan belə məhrum edilmişdir. Lakin yazıçının nənə və babaları bolşeviklərin ağalığından əvvəlki illərdə yüzlərlə yoxsul ailəyə əl tutan, kasıblara kömək edən xeyirxah və səxavətli adamlar kimi yadda qaldıqlarından, qohum-qonşu dar ayaqda bu ailəyə gizlin də olsa kömək edirdilər. O illəri xatırlayaraq.

***İlyas Əfəndiyevin rolunu ifa edən oxucu alqış sədaları altında səhnəyə çıxır, xəyala dalır, üzünü tamaşaçılara tutub sözə başlayır:***

**İ. Əfəndiyev**: Bizim ailəmiz çox ağır vəziyyətdə idi. Atam səs hüququndan məhrum edildiyi üçün uzun illər işsiz qaldı. Yeddi uşağın böyüyü mən idim. Atamın vaxtı ilə tikdirdiyi böyük evimiz əlimizdən alınmışdı. Bizim doqquz adamdan ibarət ailəmizə hökumət tərəfindən zəbt edilmiş evimizin ikinci mərtəbəsində iki balaca otaq

vermişdilər. Balaca qardaşlarım yemək stolunun altında, üstündə yatırdılar.

**2-ci aparıcı:** Çoxuşaqlı həmin ailədə ciddi nizam-intizam var idi. Anaya məhəbbət, ataya hörmət ailədə ciddi əməl olunan qaydalardan idi. Ailədə böyük-kiçik seçilirdi, hərənin öz vəzifəsi var idi. Uşaqlar kiçik yaşlarından zəhmətə, əməyə alışmışdılar. Ata çox ciddi və zəhmli olsa da, ana mülayim və rəhmdil idi.

Ailə üzvləri arasında qarşılıqlı hörmət hökm sürürdü: təbiətə məhəbbət, mütaliəyə, kitaba maraq ananın təsirindən irəli gəlmişdi. Bütün müsəlman ailələrində olduğu kimi, Əfəndiyevlər ailəsində də ata əsas şəxsiyyət idi və bütün problemləri o həll edirdi. Qarabağın aran rayonlarında yaşayan yüzlərlə başqa ailə kimi Məhəmməd kişi də ailəsi ilə bərabər yay aylarında yaylağa – Şuşaya köçərdi. İlyasın uşaqlıq illərinin müəyyən hissəsi Şuşada keçdiyindəndir ki, yazıçının yaradıcılığında Şuşa və Qarabağ mövzusu mühüm yer tutur.

**1-ci aparıcı:** Bu ailənin xoş günləri, İlyasın uşaqlıq illərinin sevincli anları 1920-ci ilin aprel-may aylarında sona yetişir. "Kulak" damğası vurulmuş bu ailənin üzvləri hərə bir tərəfə dağılır, təhlükəsizlik orqanlarının qorxusu, həbs olunmaq təhlükəsi qohumları bir-birindən aralı salır. Yazıçının atası 30-cu illərin ədalətsizliklərinə, təqib və təhqirlərə dözmür, uzun illər işsiz qalır, ailəsini dolandıra bilmir. Ağır xəstələnir. “Səksən yaşlı qocaya dönmüş" Məhəmməd kişi 1934-cü ildə 50 yaşında vəfat edir.

**2-ci aparıcı:** İ.Əfəndiyevin nənələri Fatma xanım və Bəyaz nənə, anası Bilqeyis xanım dünyagörüşlü, savadlı, şifahi xalq ədəbiyyatının onlarla nümunələrini, əfsanə, nağıl və dastanları sinələrində gəzdirən el ağbiçəkləri olmuşlar. İlyasın bir gənc kimi formalaşmasında, kitaba, ədəbiyyata, ümumiyyətlə, mütaliəyə maraq oyanmasında anası Bilqeyis xanımın əvəzsiz xidmətləri olmuşdur. O, İlyasa yalnız analıq yox, Məhəmməd kişi vəfat etdikdən sonra, müəllimlik, yoldaşlıq, həm də atalıq etmişdir. Atası ilə o qədər də "dil tapa" bilməyən, onunla dostlaşmağı bacarmayan İlyas bütün sirlərini, dərdlərini anası ilə bölüşərdi.

*Səhnədə İlyas Əfəndiyevin anasının rolunu ifa edən oxucu görünür. Anası ilə İlyas əllərində kitab mütaliə edirlər. İlyas üzünü tədbir iştirakçılarına tutub deyir:*

**İ.Əfəndiyev:** Anam keçmiş müsəlman qızları kimi, evdə mollagunə adamlardan dərs almışdı. Ərəb və rus əlifbalarında yazıb oxuyurdu. Mütaliəni çox sevirdi. Azərbaycan dilində çıxan kitabların, demək olar ki, hamısını oxumuşdu. Mənə ərəb və latın əlifbalarında yazıb oxumağı da o öyrətmişdi. Uşaq vaxtı anam bizə oxuduğu kitablardan hədsiz-hesabsız əhvalatlar danışardı. Onun oxuyub bizə nağıl elədiyi "Ərmənusə", "İngilis xanımı", "Hind racəsi", "Rüstəm və Söhrab", "Əlif Leyla" və sairə kitablar indi də yadımdadır. Füzulinin "Leyli və Məcnun" əsərini də mən ilk dəfə anamdan eşitmişdim. Ümumiyyətlə, anamız çox incə zövqə malik bir qadın idi. Dövrün ictimai hadisələrindən də baş çıxarırdı. Allahsız

olmasa da, mollalardan zəhləsi gedərdi. Məndə güclü mütaliə həvəsi məhz anamın təsirilə oyanmışdır".

**1-ci aparıcı**: Danışılan bu əhvalatlar, nağıl və əfsanələr İlyasın qəlbinə təsir etmiş, onun sonralar bir yazıçı kimi formalaşmasında mühüm rol oynamışdır.

**İ.Əfəndiyev**: ...Bunları bizə danışanda mənim xəyalımda heyrətli bir aləm yaranırdı və bu aləmin qəhrəmanları, onların igidlikləri uzun zaman gözümün qabağından getmirdi. Mən onların iztirabları ilə həyəcanlanıb pərişan olur, qələbələrinə sevinirdim və getdikcə xəyalımda yaranan bu aləm mənə real həyatdan, təsadüf etdiyim insanlardan (yalnız anamdan başqa) daha artıq xoş gəlirdi... O aləm daha şirin, daha cazibədar görünürdü.

**1-ci aparıcı:** İ.Əfəndiyevə "xoş gələn" bu sirli aləm sonralar onu öz qoynuna alır, nənəsi və anasının danışdıqları və cib dəftərlərinə qeyd olunan "maraqlı əhvalatlar" bir sıra bədii əsərlərin fabulasına çevrilir. Məsələn, Fatma nənənin danışdığı: "Quşların dilini bilən Süleyman padşah bütün quşlara əmr edir ki, hər biriniz mənə dünyanın ən gözəl quş balasını tapıb gətirin! Qarğa çox axtarır, onlarla quş balasına baxır, axırda özünün eybəcər balasını dimdiyinə alıb aparır və Süleyman padşaha deyir: Qibleyi-aləm! Dünyada bundan gözəl quş balası tapmadım" – əhvalatı "Sağsağan" hekayəsində qələmə alınmışdır. Və yaxud, məzmunu "Kitabi-Dədə Qorqud"dan gələn, xalqımızın yadelli işğalçılara qarşı

mübarizəsindən bəhs edən digər bir əfsanə "Qarı dağı" hekayəsi üçün əsas mövzu olmuşdur. Yazıçının 1991-ci ildə qələmə aldığı "Vəzir Allahverdi xan və Bəhlul Danəndə" hekayəsindəki əhvalat da anasının danışdığı rəvayətlərdən götürülmüşdür.

**2-ci aparıcı**: İ.Əfəndiyevin uşaqlıq və gənclik illəri bir tərəfdən belə əfsanəli və rəvayətli mühitdə keçmişdirsə, digər tərəfdən bolşevik qaragüruhunun və kommunist ideologiyasının ən qatı dövrünə təsadüf etmişdir. Bütün varlılar kimi Əfəndiyevlər ailəsi də dövrün ədalətsizlikləri ilə qarşılaşmışdır. Bunlar isə İlyasın qəlbində dərin iz salmışdır.Çox güman ki, ədəbi qəhrəmanlarındakı, elə yazıçının öz xarakterindəki kommunist və sovet rejiminə qarşı narazılıq, zamanın tələbləri ilə barışmamaq meyli elə buradan əmələ gəlmişdir.

**1-ci aparıcı**: Yazıçı hələ uşaq yaşlarından zəhmətə alışmış, mütaliəyə böyük maraq göstərmiş, məktəbə getməzdən əvvəl yazıb-oxumağı öyrənmiş, çoxlu kitablar mütaliə etmişdir. 1921-ci ildə birinci sinfə gedən İlyas 1930-cu ildə pedaqoji təmayüllü iki dərəcəli orta məktəbi əla qiymətlərlə bitirmişdir. Məktəbin direktoru Cəmil bəy Vəzirov, müəllimləri Mehdi Mehdizadə, Cümşüd Zülfüqarlı, Bəylər Ağayev və başqaları idi.

Orta məktəbdə oxuyarkən müəllimlərin tapşırıqları ilə kifayətlənməyən İ.Əfəndiyev dərsdən əlavə, müstəqil mütaliə yolu ilə çoxlu bədii kitablar, o cümlədən, rus ədəbiyyatı klassiklərindən A..S. Puşkin, M.Y.Lermontov,

A.P.Çexov, İ.Turgenev, M. Qorki kimi sənətkarların dilimizə tərcümə olunmuş əsərlərini mütaliə etmiş, eyni zamanda riyaziyyat və fizika elmlərinə böyük maraq göstərmiş, coğrafiyanı həvəslə öyrənmiş, böyük səyyahların, o cümlədən R.Amundsen, Nansen, Xristofor Kolumb, Ameriqo Vespuççi kimi adamların həyatını diqqətlə izləmişdir. Əlbəttə, bədii ədəbiyyat və ədəbiyyatşünaslıq onu daha çox maraqlandırırdı.

**İ.Əfəndiyev**: Klassik romanlar, pyeslər, poemalarla bərabər, o zaman haqqında çox danışılan professor Friçe, professor Koqan, professor Köprülüzadə, İsmayıl Hikmət kimi məşhur ədəbiyyat alimlərinin əsərlərini də yorulmadan, həvəslə oxuyub balaca dəftərçələrdə özüm üçün konspektlər çıxarırdım. Mən gələcəkdə Köprülüzadə kimi, professor Friçe kimi böyük ədəbiyyat alimi olmaq xəyalı ilə hey həvəslənir, hey oxuyurdum.

**II aparıcı**: Dünya ədəbiyyatı və mədəniyyət sahəsində yüksək zirvəyə qalxmış onlarla sənətkarların həyatı və yaradıcılıq təcrübəsi bir daha sübut edir ki, böyük ədiblərin, rəssam və bəstəkarların formalaşıb yetişməsində, öz xalqının qabaqcıl elm və mədəniyyət xadimi səviyyəsinə yüksəlməsində bir sıra mühüm həyati amillər həlledici rol oynamışdır.

"Sənətkarı əhatə edən ictimai ədəbi mühitin bütün mürəkkəblik və çoxcəhətliliyini öyrənmədən, onun müasirləri ilə əlaqələrinin yerini və mövqeyini dəqiq müəyyən etmədən yazıçının formalaşma və inkişaf

prosesini doğru-düzgün mənalandırmaq çətindir, bəlkə də mümkün deyildir.

**I aparıcı:** Əlbəttə, İ.Əfəndiyevin bir gənc kimi yetişməsində, mütaliəyə, ədəbiyyata, elmə böyük maraq göstərməsində, hər şeydən əvvəl, ailə tərbiyəsinin, ata-ana ocağının çox mühüm təsiri olmuşdur. Lakin bu, həlledici səbəb olsa da yeganə amil deyildi. Yazıçının formalaşıb yetkinləşməsində, bir sənətkar kimi püxtələşməsində başqa amillər də olmuşdur ki, bunlardan oxuduğu və dərs dediyi məktəbin kollektivi, boya-başa çatdığı bölgənin ictimai- mədəni mühiti, gənclik illərində böyük həvəslə izlədiyi və maraqla mütaliə etdiyi "Qızıl Araz" adlı rayon qəzeti, Füzulidə fəaliyyət göstərən xalq teatrı, ali təhsil aldığı institut həyatı, işlədiyi "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyaları və ən nəhayət Bakı ədəbi mühiti, Yazıçılar İttifaqı çox böyük təsir göstərmişdir. Düzdür, bu amillərin yazıçıya biri az, biri çox təsir etmişdir, lakin onların heç biri təsirsiz qalmamışdır.

**II aparıcı:** İ.Əfəndiyevi sənət aləminə aparan yolun başlanğıcı ailədən və orta məktəbdən keçmişdir. Bu insan həyatının elə bir anıdır ki, yeniyetmə gənc konkret və müstəqil biliyə yiyələnməyə, ətrafda baş verən hadisələri dərk etməyə, mütaliəyə maraq göstərməyə, əqli və zehni qabiliyyətini inkişaf etdirməyə başlayır. Bu yolun uğurlu başlanğıcından çox şey asılıdır. Ailədəki tərbiyə üsulları, oradakı ab-hava, qarşılıqlı münasibətlər çox şeydən xəbər verir. İnsan həyat yollarında ilk sınaqlarla burada

rastlaşır. İlyasın boya-başa çatdığı ailənin üzvləri də halal zəhmətlə yaşamış, minnətsiz çörək yeyərək övladlarını da bu ruhda tərbiyə etmişlər.

**I aparıcı**: Orta məktəbi bitirdikdən sonra bir müddət Böyük Bəhmənli kəndində dil və ədəbiyyatdan dərs deyən İ.Əfəndiyev 1935-1938-ci illərdə Qaryagin şəhər orta məktəbində coğrafiya müəllimi işləmiş, eyni zamanda gənclərin təlim-tərbiyəsində, savadsızlığın aradan qaldırılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb olunmasında fəallıq göstərmişdir. Yazıçının formalaşmasında Qaryaginin ictimai və mədəni həyatı da az rol oynamamışdır. Düzdür, 30-cu illərdə rayondakı mühit haqqında əlimizdə geniş məlumat yoxdur.
Lakin yazıçının öz xatirələri, məktəb və müəllim kollektivi, rayon ziyalıları haqqında əldə etdiyimiz məlumatlar, rayon qəzeti səhifələrində dərc edilmiş müxtəlif məqalələr, gənclərin həyatında və tərbiyəsində o illər çox mühüm rol oynamış dram kollektivinin fəaliyyəti barədəki yazılar rayonun 30-cu illərdəki ictimai-mədəni həyatı haqqında müəyyən fikir söyləməyə imkan verir.

**II aparıcı:** Bu illərdə Qaryagində "Qızıl Araz"adlı qəzet dərc edilirdi.Müxtəlif illərdə Heydər Heydərov, Bala Bağırov, Səməd Əliyev və başqalarının redaktor olduqları qəzet öz səhifələrində günün ictimai-siyasi hadisələri, təsərrüfatın aktual məsələləri haqqında materiallar dərc etməklə bərabər, ədəbiyyat və

mədəniyyətin ayrı-ayrı sahələrini də geniş işıqlandırırdı. İlyas Əfəndiyevin həvəslə mütaliə etdiyi qəzetin səhifələrində ədəbiyyat müəllimləri Nemət Hüseynov, N.Kazımovun maraqlı yazıları, gənc şair Nəcəf Quliyevin şeirləri, rayonun qabaqcıl ziyalılarından Məmməd Sadıqovun, Savalan Zülfüqarovun, A.Manaflının və başqalarının məqalələri dərc olunurdu ki, həmin yazıların heç biri nəinki İlyasın nəzərindən yayınmır və təsirsiz qalmırdı, hətta gənc müəllimin dünyagörüşünün formalaşmasına öz təsirini göstərirdi. Səhifələrində tez-tez maraqlı yazılar dərc edən "Qızıl Araz" qəzeti M.F.Axundov, M.Y.Lermontov, A.S.Puşkin, T.Q.Şevçenko və başqa klassik yazıçıların yubileyləri ilə əlaqədar xüsusi səhifələr, ayrı-ayrı nömrələr buraxırdı.

**I aparıcı**: Uşaqların təlim-tərbiyəsi, gənclərin məktəbdən yayınması, azyaşlı qızların zorla ərə verilməsi və qaçırılması, məktəblərin və uşaq bağçalarının vəziyyəti, orada təşkil edilmiş dərnəklərin fəaliyyəti və sair məsələlər qəzetin səhifələrindən düşmürdü. "Gənc şairimiz" adlı məqalədə mətbuat günü münasibətilə redaksiya tərəfindən pulla mükafatlandırılmış gənc şair Nəcəf Quliyevin yaradıcılığından bəhs olunur, "Dövlət teatrında" adlı məqalədə ordenli xalq artisti Hüseynqulu Sarabskinin seçicilərlə görüşündən söhbət açılır, məktəb həyatını işıqlandıran başqa bir məqalədə göstərilir ki, rayonun məktəblərində təşkil edilmiş coğrafiya, təbiət, fizika, riyaziyyat və sair dərnəklər yüksək səviyyədə

keçirilir, elmi məşğələlər aparılır və bütün bunlar şagirdlərə əlavə bilik və məlumat verir.

**II aparıcı**: Qeyd edək ki, orta məktəbdə oxuyarkən həmin dərnəklərdə fəal iştirak edən İlyas Əfəndiyev, müəllim olduqdan sonra da onlardan uzaqlaşmamış, dərnəklərin birinə rəhbərlik etmişdir. Gələcəkdə görkəmli dramaturq olacaq İ.Əfəndiyev "teatr" adlı sehrli bir aləmlə ilk dəfə məhz Qaryagində tanış olmuşdur. Sənət yollarında ilk axtarışlar aparan və yazıçı kimi ilk addımlarını atan gənc müəllim İ.Əfəndiyevin inkişafında istər rayon qəzeti "Qızıl Araz"ın, istərsə də rayon teatrı ciddi rol oynamışdır.

**İ. Əfəndiyev**: Mən də ora tez-tez gedir və böyük maraqla aktyorların oyunlarına tamaşa edirdim. Sənət yollarında ilk axtarışlar aparan və yazıçı kimi ilk addımlarımı atmağımda, gənc müəllim kimi inkişafımda istər rayon qəzeti "Qızıl Araz"ın, istərsə də rayon teatrının mnə böyük təsiri olmuşdur.

**I aparıcı**: Əfəndiyev orta məktəbi bitirdikdən sonra, ailə vəziyyətilə əlaqədar olaraq, təhsilində bir neçə il fasilə verməyə məcbur olur. Lakin ali təhsil almaq və Bakıya getmək arzusu onu tərk etmirdi. Ali təhsil almaq üçün Bakıya – Azərbaycan Pedaqoji İnstitutuna göndərilir. 1934 –cü ildə APİ-nin ədəbiyyat şöbəsinə daxil olsa da, onun ali məktəbdə təhsil alması çox uzun sürmür; elə həmin il institutu tərk edib rayona qayıtmağa məcbur olur.

**İlyas Əfəndiyev**: Müvəffəqiyyətlə imtahan verib filologiya fakültəsinin əyani şöbəsinə daxil oldum. Bir neçə ay orada oxuduqdan sonra xəbər tuturlar ki, atam inqilabdan əvvəl ticarətlə məşğul olduğu üçün səs hüququndan məhrum edilmişdir. O zaman səs hüququndan məhrum edilmək isə ölümə məhkum olunmaq kimi bir hal idi. Bir qədər sonra institutun tələbə həmkarlar ittifaqı komitəsinin sədri Məmməd Orucov xəlvəti mənə dedi ki, göstəriş var, ata-anası səs hüququndan məhrum edilmiş tələbələr ideoloji fakültələrdən çıxarılsın. Məsləhətdir, nə qədər gec deyil, ərizə verib bir il möhlət götür. "Atan qolçomaqdır" deyə səni institutdan çıxartsalar, sonralar iş tapmağın çətin olar. Mən də o cür hərəkət etdim.

**II aparıcı**: Atası vəfat etdikdən (1934)sonra , çoxuşaqlı ailənin bütün ağırlığı evin ən böyük övladı olan İ.Əfəndiyevin öhdəsinə düşmüşdü. Xoşbəxtlikdən İ.Əfəndiyevin adı həmin illərdə repressiya olunanların siyahılarında olmayıb. Respublikanın ən böyük ali məktəblərindən biri hesab edilən Azərbaycan Pedaqoji İnstitutunda təhsil aldığı illər İ.Əfəndiyevin həyat və yaradıcılığında mühüm bir mərhələ təşkil edir. Ən tanınmış alimlərin və müəllimlərin dərs dediyi həmin ali məktəbdə o, Bəkir Çobanzadə, Əli Sultanlı və başqa müəllimlərdən dərs almışdır.

***Səhnədə professor Bəkir Çobanzadə, Əli Sultanlı rollarının ifaçıları görünürlər. İlyas Əfəndiyev rolunun ifaçısı onlara yaxınlaşaraq deyir:***

**İlyas Əfəndiyev**: Lap ilk günlərdən istər tələbə yoldaşlarımın, istərsə də müəllimlərin yaxın, səmimi münasibətlərinə nail olmuşdum.

Professor Çobanzadə, Əli Sultanlı kimi məşhur müəllimlərimiz mənimlə xüsusi dost olmuşlar. Professor Çobanzadə bir sıra xarici dillərlə birlikdə bütün türk-tatar dillərini bilirdi. Həmişə son dəblə tikilmiş bahalı kostyumlar geyərdi. Demək olar ki, canlı bir ensiklopediya idi. Xaricdə də böyük hörməti vardı...

Aramla iki saat söylədiyi mühazirələrdən heç birimiz yorulmazdıq... o, yüksək mədəniyyətə, yüksək intellektə malik nadir bir adam idi.

**I aparıcı:** İ. Əfəndiyevin institutda dostlaşdığı və həmişə xətrini əziz tutduğu müəllimlərdən biri də Əli Sultanlı idi.

**İ.Əfəndiyev**: Əli Sultanlının antik dövr ədəbiyyatı haqqındakı mühazirələri o qədər canlı, o qədər şairanə olurdu ki, biz hər dəfə sanki gözəl bir poemaya qulaq asırdıq.

**I aparıcı**: Məhz 30-cu illərin sonlarında İ.Əfəndiyev ədəbiyyata gəlmiş və bir-birinin ardınca hekayələr yazmağa başlamışdır.

**İ.Əfəndiyev:** Rayonda ora-bura qaçaraq gündə səkkiz-doqquz saat işləməklə bərabər hələ gecə kurslarında da dərs deyirdim. Çox yorulmağıma baxmayaraq, Qarabağın

şaxtalı qış gecələrində heç kəsə bir söz demədən hekayələr yazdım. Sonralar "Kənddən məktublar" adı ilə çap olunan həmin hekayələri götürüb 1938-ci ilin yayında pulsuz-parasız gəldim Bakıya...

Bu illər çox qorxulu bir dövr idi. Ən istedadlı sənətkarların başı üzərini qara buludlar almışdı, heç kəs özündən arxayın deyildi. Sabaha sağ çıxıb-çıxmayacağından nigaran qalmış adamlar bir-birindən qorxur, heç kimə etibar etmirdi.

**I aparıcı**: İ. Əfəndiyev ədəbiyyata gəldiyi ilk illəri belə xatırlayır:

**İlyas Əfəndiyev**: Qaryagində coğrafiya müəllimi işlədiyim vaxtlar yadıma düşür. Uzun qış gecəsi idi, çöldə qar-çovğun vardı. Adətim üzrə mütaliə edirdim. Darıxır, qəribə hisslər keçirirdim.

Birdən elə bil ilahidən məndə bir fikir yarandı ki, buradakı həyatımı, ürəyimi əzən, sıxan düşüncələrimi şəhərdəki bir dostuma məktub formasında yazım. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Özüm də bilmirəm nə iş idi, oturdum, bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu. Dalbadal doqquz hekayə yazdım.

**II aparıcı:** Bədii yaradıcılıq sahəsində ilk uğurlu addımlarını 30-cu illərin axırlarında atmağa başlamış İ. Əfəndiyev, bundan əvvəl bir jurnalist, mətbuat işçisi kimi qələmini sınağa çəkmişdi.

Yazıçının tərcümeyi-halında indiyə qədər qaranlıq qalmış, daha dəqiq desək, səhv işıqlandırılmış məsələlərdən biri də onun ilk mətbu əsərinin nə vaxt çap olunmasıdır. Bu məlumatın dəqiq olmamasının bir səbəbi də, müəyyən mənada, yazıçının özü ilə əlaqədardır. Belə ki, 1938-ci ilin son aylarından etibarən səmərəli şəkildə yaradıcılığa başlamış İ.Əfəndiyevin imzası dövri mətbuat səhifələrində tez-tez görünməyə başlamışdır. Onun bir sıra məqalə, oçerk və hekayələri respublikanın müxtəlif qəzetlərində dərc olunurdu.

**II aparıcı**: Yalnız 1938-ci ilin sonlarında, 1939-cu ilin ilk iki ayında yazıçının "Yeni yol" qəzetində "Buruqlar arasında" adlı ilk oçerki, "Bataqlıq saldatları" kinofilminə yazdığı ilk rəyi, "Aşağı mətbuata rəhbərliyi canlandırmalı" adlı ilk məqaləsi, "Namuslu fəhlələrin sırasını çoxaltmalı", "Şərəf və iftixar işi" adlı yazıları işıq üzü görmüşdü. Bu illərdə "Kommunist" və "Ədəbiyyat qəzeti" də onun yazılarına yer verirdi. Yazıçının ilk mətbu hekayəsi olan "Berlində bir gecə" əsəri də bu aylarda oxuculara çatdırılmışdır.
İ. Əfəndiyev ilk mətbu əsərilə əlaqədar deyirdi:

**İlyas Əfəndiyev:** 1939-cu ildə "İnqilab və mədəniyyət" jurnalında "Gözlənilməyən sevgi" adlı ilk hekayəm çıxdı. Bundan az sonra "Kənddən məktublar" kitabım nəşr olundu."

**I aparıcı:** İlk mətbu hekayəsi hesab etdiyi "Gözlənilməyən sevgi" əsərindən xeyli əvvəl, yazıçının bir sıra hekayə, oçerk və məqalələri artıq respublika mətbuatında dərc olunmuşdur ki, bu haqda artıq məlumat vermişik. Kənddə coğrafiya müəllimi işləyərkən yazdığı hekayələrini götürüb Bakıya gələn İ.Əfəndiyev onları Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi işləyən yazıçı Əbülhəsənə göstərir. Hekayələri oxuyan Əbülhəsən onları bəyənir və çapını məsləhət görür. Beləliklə, yazıçının "Kənddən məktublar" adlı ilk kitabı çap olunur.

**II aparıcı**: İ.Əfəndiyev 1938-ci ilin axırlarında Bakıya gəlir və onun yaradıcılığında mühüm rol oynamış Bakı ədəbi mühitinə qovuşur. Bakıda heç kimi tanımayan kimsəsiz gənc yazıçı İ.Əfəndiyev o vaxtlar Yazıçılar İttifaqında partkom işləyən görkəmli yazıçı Əli Vəliyevlə tanış olur və onun köməyilə "Yeni yol" qəzetində mədəniyyət və ədəbiyyat şöbəsində ədəbi işçi vəzifəsinə işə düzəlir.Bakıda ilk gündən qayğıkeş və xeyirxah insanlarla əhatə olunmuş gənc yazıçı məhsuldar yaradıcılıqla məşğul olmağa və əsərlərini respublikanın dövri mətbuat orqanlarında dərc etdirməyə başlayır.

Yazıçı "Yeni yol" qəzeti redaksiyasında bir qədər işlədikdən sonra qəzetin nəşri dayandırılır. Bundan sonra o, əmək fəaliyyətini əvvəlcə "Kommunist" (1939 -1940), sonra isə "Ədəbiyyat qəzeti"ndə nəsr şöbəsinin müdiri kimi davam etdirmişdir.

**I aparıcı**: Heç şübhəsiz ki, İ.Əfəndiyevin bir yazıçı kimi inkişaf etməsində və ədəbi ictimaiyyət tərəfindən tanınmasında əməkdaşlıq etdiyi həmin qəzet redaksiyalarının müəyyən xidməti olmuşdur. İ.Əfəndiyev 1940-cı ilin yanvar ayında AzərbaycanYazıçılar İttifaqına üzv qəbul olunmuşdur. Gənc yazıçı bundan sonra Yazıçılar İttifaqının işlərində yaxından iştirak etməyə başlayır.

**II aparıcı**: Böyük Vətən müharibəsinin başlanması bütün başqa sənətkarlar kimi gənc yazıçını da səfərbər etdi. O da "müsəlləh əsgərə" çevrilib, qələmini silahla əvəz etdi. Yazıçı oxucularda düşmənə qarşı dərin nifrət, vətənə məhəbbət hissləri aşılamaq vəzifəsini öhdəsinə götürdü. Tarixi keçmişimizə, el qəhrəmanlarına, folklor nümunələrinə müraciət edərək bir sıra hekayələr yazdı. Əsgərlərlə görüşlər, söhbətlər keçirmək üçün yazıçı briqadaları ilə birlikdə azərbaycanlılardan ibarət diviziyalarda oldu.Digər tərəfdən, əsasən bir nasir kimi tanınmış ədib, ədəbiyyatın başqa bir sahəsində-dramaturgiyada qələmini sınadı.

**I aparıcı:** 1943-cü ildə o, yazıçı M.Hüseynlə birlikdə, mövzusu Böyük Vətən müharibəsindən götürülmüş "İntizar" pyesini qələmə aldı. Əsər 1944-cü ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında tamaşa qoylmuşdur. İ.Əfəndiyevin Azərbaycan Milli

Teatrı ilə 50 ildən çox bir müddətdə davam etmiş sıx yaradıcılıq əməkdaşlığının belə başlamışdır. Bundan sonra yazıçı Milli Teatrımız üçün "İşıqlı yollar" (1946) və "Bahar suları" (1947) pyeslərini qələmə aldı.Görkəmli ədib dramaturgiyaya gəldiyi illəri belə xatırlayır:

***Səhnədə Mehdi Hüseyn rolunun ifaçısı görünür. O, İlyas Əfəndiyevə yaxınlaşıb deyir:***

**Mehdi Hüseyn:** İlyas müəllim, istəyirsən birlikdə bir pyes yazaq .

**İlyas Əfəndiyev**: Mehdi kimi məşhur bir yazıçının bu təklifi gənc yazıçı üçün çox xoş idi və mən razılıq verdim. Beləliklə, biz birlikdə "İntizar" pyesini yazdıq. Pyes Azərbaycan Dövlət Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyuldu. Bundan bir müddət sonra teatrın direktoru və baş rejissoru Adil İsgəndərov məni milli teatra dəvət etdi. Nəsr yaradıcılığımdan xoşlandığını bildirdi və təklif etdi ki, neft həyatından teatr üçün bir pyes yazmaq barədə düşünüm...
Neftçilərin həyatını öyrənməyə başladım və neft həyatından "İşıqlı yollar" adlı dram əsərimi yazdım. Əsər Akademik teatrda tamaşaya qoyulduqdan sonra Adil İsgəndərov müasir kənd həyatından da bir pyes yazmağı təklif etdi. Hətta qonorarın yarısını da qabaqcadan verdi. "Bahar suları" adlı pyesim də belə meydana gəldi. Pyesi Adil İsgəndərov özü tamaşaya qoydu, musiqisini Səid Rüstəmov yazdı. Beləliklə, mən nəsr yazmaqla bərabər , dramaturgiyaya daxil oldum".

**II aparıcı**: 40-cı illərin axırlarında İ.Əfəndiyev artıq özünü bir nasir və dramaturq kimi təsdiq etmişdir. Onun yaradıcılıq uğurları təkcə oxucuları deyil, eyni zamanda ədəbiyyatşünas alimləri də sevindirirdi. Yazıçının yaradıcılığı, çap etdirdiyi hər bir yeni əsəri tənqidçilərin diqqətindən yayınmırdı. Məhz bu illərdə dövri mətbuat səhifələrində onun yaradıcılığı haqqında ilk məqalələr dərc olunmağa başladı. Əkbər Ağayevin "Kənddən məktublar", Hüseyn Şərifovun "Ümid verən yazıçı", Mehd Hüseynin "Bir nasir haqqında", H.Orucəlinin "Həyata doğru", O.Sarıvəllinin "İntizar", M.Arifin "İntizar", M.Cəfərin "İntizar" tamaşası haqqında" və s. məqalələr İ.Əfəndiyevin geniş oxucu kütləsinə tanıtmaqda mühüm rol oynamışdır. Bundan əlavə, Azərbaycan Yazıçılar İttifaqının xüsusi iclaslarından birində yazıçı İ.Əfəndiyevin yaradıcılıq hesabatının dinlənilməsi və burada S.Vurğunun, M.Hüseynin, Ə.Məmmədxanlının, Ə.Ağayevin, H.Orucəlinin və başqa sənətkarların çıxış edib xoş sözlər söyləmələri İ.Əfəndiyevin yaradıcılığına olan maraqdan irəli gəlirdi.

**I aparıcı:** Gənc yazıçı İ.Əfəndiyev Bakıya gəldiyi ilk gündən Əbülhəsən, Ə.Vəliyev, S.Rəhman, M.Cəfər, M.Hüseyn, S.Vurğun, S.Rəhimov, M.Arif, Ə.Ağayev, A.İsgəndərov, Adil Əfəndiyev və onlarla bu kimi sənətkarların əhatəsində olmuş, hər gün onların təsirini hiss etmiş, nəzər- diqqətindən kənarda qalmamış və yetkinləşmişdir. Yazıçı həmin xeyirxah insanları sonralar belə xatırlayırdı:

**İlyas Əfəndiyev:** " Mən ədəbiyyatımızda onların yerini boş görürəm.Yazıçılardan S.Vurğun da, Əli Vəliyev də, Mehdi Hüseyn də, Süleyman Rəhimov da o şəxslərdir ki, o zaman ədəbi gənclik, o cümlədən mən də, onlara güvənirdik, onları özümüzə kömək, arxa hesab edirdik. Bir çətinliyimiz olanda müraciət edirdik, onlardan həmişə kişilik, kömək görürdük."

Yaradıcılıq yollarında inamla addımlayayn gənc yazıçı 1941-45-ci illərdə Azərbaycan RadioVerilişləri Komitəsində ədəbi verilişlər şöbəsinin müdiri, 1945-ci ildən Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi, daha sonra isə Azərnəşrdə bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışarkən ədəbi ictimaiyyətlə bilavasitə təmasda və əlaqədə olmuş, həyatı dərindən öyrənmiş, dünyagörüşünü daima artırmışdır.

**II aparıcı:** 1945-ci ildə İ.Əfəndiyevin "Aydınlıq gecələr" adlı kitabı nəşr olunur. Burada əsasən müharibə illərində yazılmış əsərlər toplanmışdır. Əsərlərin mövzuları müharibədən götürülsə də, əsas məsələ bu idi ki, həmin hekayələrdə döyüş və sınaq illərində müasirlərimizin mənəvi dünyası qələmə alınmışdır. Həmin əsərlərdə yazıçı canlı insan surətlərinə, onların daxili aləmlərinin təsvirinə üstünlük vermişdir. "Aydınlıq gecələr" kitabı İ.Əfəndiyevi öz səsi, öz yazı üslubu olan orijinal bir yazıçı kimi təsdiq etdi.

**I aparıcı:** 1947-ci ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı İ.Əfəndiyevin "İşıqlı yollar" pyesini tamaşaya qoydu. Əsər teatrın 1948-ci ildə Moskvaya qastrolu zamanı paytaxt sənətsevərlərinə göstərilmişdir. Həmin pyes yazıçının ilk müstəqil səhnə əsəri idi. Gənc dramaturq görkəmli rejissor Adil İsgəndərovun təklif və təkidilə "Bahar suları" pyesini yazır. Lakin əsər birmənalı qarşılanmadı.Pyes haqqında müxtəlif fikirlər irəli sürüldü. "Bahar suları" pyesi haqqında müəllif yazmışdır:

**İ.Əfəndiyev**: "...Dramaturgiyada "konfliktsizlik" nəzəriyyəsi ifşa olunandan sonra, bizim Akademik Dram Teatrında tamaşaya qoyulan ilk konfliktli əsər mənim "Bahar suları" pyesim oldu. Bu əsərdə müsbət obrazlarla bərabər, mənfi tiplər də var idi. Pyes Akademik Teatrda müvəffəqiyyətlə gedirdi. "Kommunist" qəzeti Əli Vəliyevin təşəbbüsü ilə böyük disput təşkil etmişdi....Disput olduqca canlı keçirdi. Çıxış edənlər tamaşaya yüksək qiymət verirdilər. Əsərin müzakirəsində iştirak etmiş Əli Vəliyev, Səməd Vurğun, eyni zamanda ədəbiyyatşünaslar əsərin bir sıra məziyyətlərini göstərməklə, müəllifin yüksək istedada malik olduğunu təsdiq etmişlər.

**II aparıcı**: 1949-cu ildə Azərbaycanın ədəbi-mədəni ictimaiyyəti və bütün sənətsevərləri Azərbaycan Dövlət Dram Teatrının 75 illiyini təntənə ilə qeyd edərkən, səhnə sənətinin inkişafındakı xidmətləri nəzərə alınaraq İ.Əfəndiyev "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdi.

1954-cü ildə tamaşaya qoyulmuş "Atayevlər ailəsi" dramaturqun yaradıcılığında ən böyük uğurlardan hesab edilir. Müəllif ictimai həyatda rastlaşdığı qüsurları realist mövqedən, yüksək sənətkarlıqla qələmə aldığından, əsər tamaşaçı və oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Pyesi tamaşaya Tofiq Kazımov hazırlamışdı.

***Alqış sədaları altında səhnəyə Tofiq Kazımovun rolunu ifa edən oxucu çıxır. O, mehribanlıqla İlyas Əfəndiyevə yaxınlaşır və gələcəkdə hazırlayacaqları qiymətli əsərlər haqqında söhbətə başlayır.***

**I aparıcı**: Sanki İlyas Əfəndiyev ilə Tofiq Kazımov bir-birini kəşf etmişdi.Bir-birini digərini gözəl başa düşürdülər. Müasirlik duyğusu çox güclü olan bu iki sənətkar Azərbaycan teatrı tarixinə parlaq səhifələr yazmışdır. Yaradıcılıq intuisiyası çox geniş olan Tofiq Kazımovla, insan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran İlyas Əfəndiyev arasındakı yaradıcılıq əlaqələri uzun illər davam etmişdir.Bu vaxta qədər bir dramaturq və hekayələr müəllifi kimi tanınmış İlyas Əfəndiyev 1958-ci ildə ilk dəfə iri həcmli "Söyüdlü arx" romanını oxuculara təqdim edir. Əsər yazıçıya böyük uğur qazandırdı.

**II aparıcı:** 1953-1958-ci illərdə İ.Əfəndiyev Azərbaycan Yazıçılar İttifaqında nəsr üzrə məsləhətçi vəzifəsində çalışarkən ədəbiyyata gələn istedadlı gənclərin yaradıcılığını qayğı ilə izləmiş, onların yeni əsərlərinin

çapına, kitablarının buraxılmasına kömək göstərmişdir. İlyas Əfəndiyev1954-cü ildən etibarən AzərbaycanYazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü olmuş, 1958-ci ilin axırlarında Yazıçılar İttifaqı İdarə Heyətinin məsul katibi seçilmişdir. İttifaqın işində yaxından iştirak edən ədib, Respublika yazıçılarının II qurultayında (1954) "Azərbaycan sovet dramaturgiyası", III qurultayında isə (1958) "Azərbaycan dramaturgiyasının inkişafı" mövzularında məruzələr etmişdir.

**I aparıcı**: İ. Əfəndiyev çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkarlardandır. Əgər biz onun həyat və yaradıcılıq yolunun hər hansı bir ilini, yaxud qısa bir dövrünü ciddi xronoloji ardıcıllıqla izləsək, maraqlı bir mənzərənin şahidi olarıq: yazıçı eyni bir qısa dövr ərzində hekayələr yazmaqla yanaşı, istedadlı bir dramaturq kimi də fəaliyyət göstərir, iri həcmli roman və povestlərlə bərabər oçerklər üzərində də işləyir, publisistik məqalələr qələmə almaqla yanaşı, konfrans və qurultaylarda məruzələrlə çıxış edir. Bir sözlə, İlyas Əfəndiyevə hekayədən faciəyə, romandan komediyaya, məqalədən pyesə keçmək heç də çətinlik törətmir. Bu, yazıçı üçün adi bir haldır. İ.Əfəndiyev ədəbiyyatın bütün janrlarında kamil sənət nümunələri yaratmışdır ki, bu da yazıçının sənət palitrasının müxtəlif çalarlarından, dünyagörüşünün genişliyi və yaradıcılıq intellektindən xəbər verir.

**II aparıcı**:  1960-cı ildə Respublikanın əməkdar incəsənət xadimi fəxri adını almış İ.Əfəndiyevin yaradıcılığında 60-80-cı illər ən məhsuldar dövr hesab olunur. Bu illərdə onun yaradıcılığında janr rəngarəngliyi özünü göstərir. Bir-birinin ardınca iri nəsr əsərləri, ciddi ictimai-siyasi problemlər qaldıran, gözəl mənəvi keyfiyyətlər aşılayan, eyni zamanda müasir Azərbaycan nəsrinin yüksək bədii-estetik səviyyəli nümunələri kimi şöhrət qazanmış "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1976-78), "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981) kimi povest və romanlarını dərc etdirir. Eyni zamanda maraqlı dram əsərlərini qələmə alır, publisist və ədəbiyyatşünas kimi məhsuldar yaradıcılıq yolu keçir. Bu illərin məhsulu olan "Sən həmişə mənimləsən" (1964)pyesi ilə Azərbaycan səhnəsində lirik-psixoloji dramanın əsasını qoyur. Bu yolu uğurla davam etdirən dramaturq "Mənim günahım" (1967), "Unuda bilmirəm" (1968), "Məhv olmuş gündəliklər" (1969), "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1976) və sair pyeslərini yazır.

**I aparıcı**: Ölməz sənət nümunələri kimi Azərbaycan dramaturgiyası xəzinəsini zənginləşdirən, yüksək vətəndaşlıq pafosu, incə lirizm və dərin psixoloji tapıntılarla aşılanan bu pyeslər teatr sənətimizdə yeni bir mərhələ açdı, "İlyas Əfəndiyev teatrı" yaratdı. "İlyas Əfəndiyev teatrı"nın uğurlarından söhbət açarkən, təkcə onu göstərmək kifayətdir ki, ilk tamaşası 1968-ci ildə olmuş "Unuda bilmirəm" pyesi 1981-ci ilə qədər, yalnız

Azərbaycan Milli Teatrı səhnəsində 350 dəfə oynanılmışdır. İlyas Əfəndiyev 1971-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**II aparıcı**: Əlinə qələm aldığı ilk gündən müasir mövzulara daha çox müraciət edən dramaturq 1971-ci ildə mövzusu tarixi keçmişimizdən götürülmüş "Mahnı dağlarda qaldı" pyesini yazır. Yeni yaradıcılıq uğuru kimi qarşılanmış bu pyesə görə İ.Əfəndiyev 1972-ci ildə Respublika Dövlət mükafatına layiq görülür. 1974-cü ildə Respublikamızın ədəbi ictimaiyyəti yazıçının anadan olmasının 60 illiyini təntənə ilə qeyd edir. Yubileylə əlaqədar olaraq ədib Oktyabr İnqilabı ordeni ilə təltif olunur. Azərnəşr onun dörd cildlik "Seçilmiş əsərləri"ni çap edir.

**I aparıcı**: Görkəmli ədəbiyyat xadimi, geniş şöhrət qazanmış İ.Əfəndiyev Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin 30 iyul 1979-cu il tarixli fərmanı ilə “Xalq yazıçısı “fəxri adına layiq görülmüşdür.Yazıçının anadan olmasının 70 illiyi Respublikamızda qeyd olunarkən "Yazıçı" nəşriyyatı 1984-1985-ci illərdə oxucularına gözəl bir hədiyyə hazırlamış, ədibin 6 cildlik "Seçilmiş əsərləri"ni nəfis şəkildə 40 min nüsxə ilə çap etmişdir.

**II aparıcı**: 60 ildən çox yaradıcılıq yolu keçmiş İ.Əfəndiyev, 90-cı illərdə də məhsuldar bir yazıçı kimi yazıb- yaradır, hər il yeni-yeni əsərlər nəşr etdirir, təzə pyeslərini tamaşaya qoyurdu. Sovet rejimi illərində, partiya qadağaları dövründə yaza bilmədiyi bir sıra mövzuları cəsarətlə ədəbiyyata gətirir, onları yeni zamanın kontekstində oxuculara təqdim edirdi. O. "Hacı Axundun cənnət bağı necə oldu" hekayəsini, "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestini dərc etdirir. Bununla yanaşı, "Şeyx Xiyabani" (1986), "Bizim qəribə taleyimiz" (1988), "Sevgililərin cəhənnəmdə vüsalı" (1989), "Tənha iydə ağacı" (1991), "Dəlilər və ağıllılar" (1992), "Hökmdar və qızı" (1994) və sair pyeslərini tamaşaya qoydurmuş, bir sıra yeni kitablarını nəşr etdirmişdi.

**I aparıcı**: Azərbaycanın ədəbi ictimaiyyəti 1994-cü ilin may-iyun aylarında xalq yazıçısı İ.Əfəndiyevin anadan olmasının 80 illiyini təntənə ilə qeyd etdi. Ədəbiyyatın inkişafında xidmətlərini nəzərə alan müstəqil Azərbaycan Respublikasının Prezidenti yazıçını "Şöhrət" ordeni ilə təltif etdi. Respublikamızın sənət adamları arasında İ.Əfəndiyev birinci sənətkar idi ki, həmin ordenlə mükafatlandırılmışdı. Heydər Əliyev cənabları yazıçıya göndərdiyi təbrik məktubunda ədibin yaradıcılığına yüksək qiymət verərək yazmışdı:

**II aparıcı**: "Sizi-Azərbaycanın görkəmli dramaturq və nasirini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik

edirəm. Dünya mədəniyyətinə ölməz dahilər bəxş etmiş qədim Odlar yurdunda xalqın məhəbbətini qazanmaq, sənət zirvəsinə ucalmaq olduqca çətin və şərəflidir. Siz fədakar əməyiniz sayəsində bu şərəfə nail olmuşsunuz.Oxucuların sevə-sevə mütaliə etdiyi nəsr əsərləriniz, Milli teatrımızın səhnəsində tamaşaya qoyulan pyesləriniz bunu parlaq şəkildə sübut edir...Sizin yaratdığınız obrazlar xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işinə xidmət etmişdir. Əminəm ki, müstəqil Azərbaycanımızın hələ neçə-neçə nəsli bu zəngin mənbədən faydalanacaqdır".

**I aparıcı**: Zəngin yaradıcılıq yolu keçmiş, həyatın acılı-şirinli günlərini yaşamış İlyas Əfəndiyev 1996-cı il oktyabr ayının 3-də Bakı şəhərində dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. "İlyas Əfəndiyev əslinə-nəslinə yaraşan şərəfli, namuslu yazıçı ömrü sürdü. Həm də namuslu ömür sürdüyünü özü bəyan etmirdi, qələmdən ayrılmadan son günlərinəcən halal zəhmətlə, hər cür intriqalardan, həsəddən və nifrətdən uzaq bir aləmdə – sənət dünyasında yaşadığı həyatla sübut edirdi".

**II aparıcı**: Yazıçının hekayə janrında yaratdığı sanballı nümunələr daim oxucu marağı və rəğbəti ilə qarşılanmış, dönə - dönə nəşr edilmiş, dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. Böyük ədibin estetik dəyərlərinə görə öz müəllifinə Azərbaycan ədəbiyyatında qibtə olunacaq bir mövqe qazandırmışdır. Yazıçının lirik –

psixoloji yaradıcı təxəyyülünün məhsulu olan hekayələrə lakonizm, humanizm, yüksək insanpərvərlik xasdır.

**I aparıcı:** İlyas Əfəndiyev böyüklüyü, nəhəngliyi sağlığında sübut olunmuş bir həqiqətdir. Ancaq bu heç bir söz ustasına bənzəməyən orijinal, qeyri-adi böyüklükdür. Biz dahi söz ustalarına, klassiklərə adətən uzun-uzun illər, əsrlər ardından baxmışıq, onların əzəmətləri qarşısında baş əymişik. Gəlin xalq yazıçısı İlyas Əfəndiyevə qələm dostlarının həsr etdiyi şeirlərə nəzər salaq.

***Məktəbli oxucular səhnəyə çıxıb bir sıra şairlərimizin xalq yazıçısı İlyas Əfəndiyevə həsr etdiyi şeirləri söyləyirlər.***

***Aparıcı: İlk öncə gəlin xalq şairi Fikrət Qocanın "İlyas Məhəmməd oğlu" şeirini dinləyək.***

Dağların Bəbir qadını,
Doğdu bir eşqin odunu,
Xızır İlyasın adını
Verdi əziz balasına.

Bu diyarda ömrü boyu,
Xəyalında dağ çiçəyi,
Nəğmə oldu adı, soyu,
Ürəyində bulaq suyu,

Bu şəhərdən keçdi, getdi...
Zaman piyada, o atlı,
Elçin, Teymurçin qanadlı
İlyas Məhəmməd oğlu.

Nə dostlarla yarışardı,
Nə də dərdin danışardı,
Öz yolunda, öz ilhamı
Bir şam kimi alışardı.

Hava tutqun, yollar çətin...
Həmişə təmiz saxladı
Öz varlığın, öz siqlətin.
Təmiz, saf bir parçasıydı

O dağların, təbiətin.
Adı məşhur, sözü dadlı...
Elçin, Teymurçin qanadlı
İlyas Məhəmməd oğlu

Hələ bizim aramızda
Ömür sürür söz Paşası.
Dillərdə sözü-söhbəti,
Səhnələrdə tamaşası.

İlham şamı sönməyibdi,
Xatirəyə dönməyibdi,
Evdə ayaq izi isti,
Heç mürəkkəb qurumayıb,

Hələ səsi, sözü isti... hələ,
Hələ, hələ bundan belə
Ruhu, mehriban xəyalı
Üzümüzə gülə-gülə

Neçə nəvə böyüdəcək
İlyas qəlbli, İlyas adlı...
Elçin, Teymurçin qanadlı
İlyas Məhəmməd oğlu.

*Sonra isə oxucuların ifasında M, Qacarın İ. Əfəndiyevə həsr etdiyi "Yoxdur bənzəri" şeiri dinlənilir.*

Sənət aləminin nəhəngi idi,
Yaşadı, yaratdı,iz qoydu getdi,
Böyük səhnəmizin çələngi idi,
Əbədi yaşayan söz qoydu getdi.

Obrazlar yaratdı unudulmayan,
Müasir dramın öndəri oldu,
Birinci, sonuncu amalı-insan!
Naqislik həmişə kədəri oldu.

İnsana xoşbəxtlik, saflıq dilədi,
Ellər də səs verdi onun səsinə,
Səmimi tənqidlə saflıq çilədi,
Bir gün "Atayevlər ailəsinə".

Sənət dəryasında üzdü dərinə,
Yurda xidmət oldu xoş arzuları,
Lillənən, iylənən göllər yerinə
Daim axıb doldu “Bahar suları.”

*Hörmətli tədbir iştirakçıları, indi isə gəlin oxucularımızın ifasında xalq şairi Zəlimxan Yaqubun sevimli yazıçımız İlyas Əfəndiyevə həsr etdiyi “Köhnə kişi” şeirini dinləyək.*

***Köhnə kişi***

***Təzələr içində təzədən təzə,***
***Köhnələr içində köhnə kişiydi.***
***Uca şəxsiyyəti, əsərləriylə***
***Tamaşa kişiydi, səhnə kişiydi.***
***“Bahar suları” tək axırdı dili,***
***Çəmən qucağında çeşmə kimiydi.***
***Nəsrin şeriyyəti Valeh dilində,***
***Bayatı kimiydi, qoşma kimiydi.***
***Fikrə düşüncəyə, zehnə, yaddaşa,***
***Əlvan naxışları vurdu yaşadı.***
***“Büllur saray”lara tamah salmadı,***
***Könül sarayını qurdu yaşadı.***
***Onun əsərləri talaeyimizdi,***
***Hey bizdən dannışdı, hey bizdən dedi.***
***Kamran Borçalıdan söhbət açanda,***
***“Şeyx Xiyabani” Təbrizdən dedi.***

***Onun qələmində tariximiz də,***
***Tarixi ən kəskin ittiham da var.***
***Möhtəşəm hökmdar ucalığı da,***
***“Məhv olmuş gündəlik”, sönən şam da var.***
***Saçı zirvələrin qarına döndü,***
***Sarvantək daşıdı karvan dərdləri.***
***Onun qələmiylə dindi, danışdı***
***Qarabağ, Borçalı, Şirvan dərdləri.***
***Enişli-yoxuşlu həyat yolunda***
***Neçə dərə keçib, neçə dağ çıxıb.***
***Zaman sınağından təmiz, ləkəsiz,***
***Sənət sınağından üzüağ çıxıb.***
***Təzələr içində təzədən təzə,***
***Köhnələr içində köhnə kişiydi.***
***Uca şəxsiyyəti, əsərləriylə***
***Tamaşa kişiydi, səhnə kişiydi.***

***Xalq yazıçısı İlyas Əliyevin haqqında dəyərli şəxsiyyətlər tərəfindən çoxlu müdrik kəlamlar yazılmışdır. Gəlin bu kəlamları oxucularımızın ifasında dinləyək:***

1.“Azərbaycan tarixi barədə klassik sənədlər-yeddi “Qarabağnamə” var. Bütünlükdə İlyas Əfəndiyevin yaradıcılığını xalqımız səkkizinci “Qarabağnamə” hesab edir.”. İlyas Əfəndiyevin əsərlərini diqqətlə oxuduqda onu həm yazıçı, həm də tarixçi, coğrafiyaçı, salnaməçi kimi də dəyərləndirmək olur. Qarabağ İlyas Əfəndiyevin yaradıcılığında baş mövzudur.

2. İ. Əfəndiyevin yaradıcılığı Azərbaycan ədəbiyyatının boyçiçəyidir. Həmişə ətirli, həmişə solmaz və bihuşedici…

3. İlyas Əfəndiyev müstəqil Azərbaycanın dövlət ordenini- "Şöhrət" ordenini alan ilk yazıçıdır. Sovet dövründə mükafatları çox olmuşdu. Amma onun ən çox dəyərləndirdiyi, sevə-sevə qarşıladığı , əzizlədiyi mükafat məhz "Şöhrət" ordeni oldu. İllər boyu qəlbini əzən, duyğularını pərən-pərən edən, yaradıcılığında əks olunan həsrətinə son qoyuldu. Varlığı qədər sevdiyi məmləkəti hürriyyətinə qovuşdu.

4. İlyas Əfəndiyev çoxşaxəli yaradıcılıq yolu keçmiş sənətkarlardandır. Əgər biz onun həyat və yaradıcılıq yolunun hər hansı bir ilini, yaxud qısa bir dövrünü ciddi xronoloji ardıcıllıqla izləsək, maraqlı bir mənzərənin şahidi olarıq: yazıçı eyni dövr ərzində hekayələr yazmaqla yanaşı, istedadlı bir dramaturq kimi də fəaliyyət göstərmiş, irihəcmli roman və povestlərlə bərabər, oçerk və məqalələr də ərsəyə gətirmiş, konfrans və qurultaylarda məruzələrlə çıxış etmişdir. O, ədəbiyyatın bütün janrlarında kamil sənət nümunələri yaratmışdır ki, bu da yazıçının sənət palitrasının müxtəlif çalarlarından, dünyagörüşünün genişliyi və yaradıcılıq intellektindən xəbər verir.

5. Özünəməxsus yaradıcılıq üsulu ilə iyirminci əsr Azərbaycan ədəbiyyatının əvəzolunmaz simalarından biri kimi tarixə düşmüş İlyas Əfəndiyevin zəngin nəsrinə "Söyüdlü arx","Körpüsalanlar","Dağlar arxasında üç dost","Sarıköynəklə Valehin nağılı,"Geriyə baxma, qoca",

“Üçatılan” və sair roman və povestləri, dramaturgiyasına “İşıqlı yollar”, “Bahar suları”,”Atayevlər ailəsi”, “Sən həmişə mənimləsən”,”Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər”,”Qəribə oğlan”,”Mahnı dağlarda qaldı”,”Bağlardan gələn səs” və sair daxildir. O, pyesləri ilə teatr sənətimizdə yeni bir mərhələ açmış,”İlyas Əfəndiyev teatrı” yaratmışdır.

6. Ədibin qəhrəmanları ülvi məqsədləri, mübarizliyi, xarakterlərinin bütövlüyü, yaşadığı hissilərin, duyğuların təbiiliyi ilə yaddaşlara həkk olunmuşlar. 60 – cı illərdə səhnəyə gələn gənclərin püxtələşməsində İ. Əfəndiyevin zəngin dramaturgiyasının böyük rolu olmuşdur.

7. Əsərlərinin əksəriyyətini sovet dövründə yazmış İlyas Əfəndiyev hakim ideologiyanı heç vaxt tərənnüm etməmiş, sadə insanların həyatını, onların məhəbbətini, arzu və istəklərini böyük ustalıqla qələmə almışdır. Buna görə də onun əsərləri indi də coğrafi sərhədləri adlayaraq, yeni -yeni oxucu auditoriyalarının sevgisini qazanmaqdadır.

8. Sənətkarın yaradıcılığında Qarabağ mövzusu da əsas yer tutmuşdur. O, namərd qonşularımızın ötən əsrin 90 - cı illərində başlayan xəyanətkarlıqlarını, işğalçılıq hərəkətlərini dərin narahatlıq, vətəndaş yanğısı ilə izləmiş, əsərlərində Qarabağın qədim tarixini əks etdirmişdir.

9. İlyas Əfəndiyev ötən əsrin ən dəyərli sənətkarlarındandır. XX əsr bütün bütün tarixi-ictimai və mənəvi mənzərəsi ilə İ.Əfəndiyevin də nəsr və dramaturgiyasında öz parlaq əksini tapıb.

10. İlyas Əfəndiyevin istər hekayə və romanları, istərsə də dram əsərləri əsl poeziyadır. Bu əsərlərin qəhrəmanları olan yaşıdımız oğlan və qızlar poeziya dili ilə danışır. İlyas Əfəndiyevin poetik dilinə bir çox şairlərimiz həsəd aparmışlar.

11. "İlyas Əfəndiyev gələcəyin yazıçısıdır" – İlyas Əfəndiyev ona görə gələcəyin yazıçısı ola bildi ki, o, keçmişə düzgün yanaşdı, tarixə istinad edə bildi. Onun əsərlərində, məsələn, "Geriyə baxma, qoca",''Üçatılan'',''Xurşidbanu Natəvan'',''Hökmdar və qızı" və sair əsərlərində tarix olduğu kimi, şübhəsiz, obrazlı tərzdə bədiiləşib. Yazıçı tarixin özünü yox, obrazını sədaqətlə, tarixilik prinsipi ilə yaratmağa nail olmuşdur.

12. "İlyas Əfəndiyev novator sənətkardır" – müəllifin ikinci metodoloji çıxış nöqtəsi belədir! Novatorluq, hər şeydən öncə , ədibin hadisələrə, ənənələrə, gerçəkliyə, əşyalara yanaşma tərzində, münasibət üsulunda idi. O, XX əsr realist ədəbiyyatının böyük nümayəndəsi idi. Mənəvi gözəllik üçün məsuliyyət İ. Əfəndiyevin mədəniyyət təliminin cövhərini təşkil edir. Bütün dünyaya – tarixə, insana təbiətə, sənətə gözəllik prizmasından nəzər salan ədib mədəniyyətə də gözəlliyin saxlancı kimi dəyər vermişdir.

13. "İlyas Əfəndiyev cağdaş milli mədəniyyətə böyük təsir göstərmiş şəxsiyyətlərdəndir" – Ədibin hekayə, povest, roman, pyes və kinossenarilərində ayrı- ayrı dövrlər , ictimai – sosial mərhələlər, fərqli bədii – estetik

təmayüllər orqanik şəkildə bir – birinə calanır, bir – biriylə dil tapır, qarşılıqlı surətdə bir – birini tamamlayır və Azərbaycan mədəniyyəti hüdudlarında hadisə statusu alır”.

14. “İlyas Əfəndiyev teatrı milli özünüdərkin və milli – mənəvi dəyərlərin güzgüsüdür” – İlyas Əfəndiyev yarım əsrə yaxın Azərbaycan teatrının ağırlığını öz çiyinlərində aparıb, teatrımızı novator dramaturgiya ilə təmin edib. O, həm nəsrdə, həm də dramaturgiyada lirik – psixoloji üslubun banisi idi. İ. Əfəndiyev öz ətrafında fərdi milli – mədəni mühit yaradan sənətkar idi.

15. İlyas Əfəndiyev öz əsərlərində Azərbaycan xalqının mədəni – mənəvi həyatını onun genetik mənşəyindən nəşət edən milli özünüdərkini , xalqımızın tarixi taleyini, estetik zövq və dünyaduyumunu , sənət baxışlarını əks etdirməklə mədəni prosesə təkan vermişdir. Onun yaratdığı xarakterlər qədim türk ruhu məcrasında formalaşıb, qəhrəmanlıq, qürur, ocağa bağlılıq, torpaq təəsübü qədim türk imperatorlarının əxlaqı ilə bağlı idi. İlyas Əfəndiyevin əsərlərində, xüsusən , onun qəhrəmanlarının davranışlarında Vətən əxlaqı və milli əxlaq vəhdətdə çıxış edir. İlyas Əfəndiyev XX əsr Azərbaycan ədəbiyyatının ən milli yazıçısıdır”.

16. İlyas Əfəndiyev yazdığı dram əsərləri ilə Azərbaycan teatr səhnəsinə lirik – psixoloji üslub adlanan bir yenilik gətirmişdir. İlyas Əfəndiyevin fikrincə, ədəbi tənqid ədəbiyyatın yol göstərənidir.

17. İlyas Əfəndiyevin arzusu hər kəsi həqiqi vətəndaş, Vətənini və xalqını varlığından artıq sevən və bu yolda hər

şeydən keçməyi bacaran insan görmək idi. İ. Əfəndiyev ədəbiyyatın əbədiyyətini fəth etmiş yazıçıdır.

18. Dilə hakim sənətkar- Azərbaycan ədəbiyyatının klassiki, qüdrətli qələm sahibi İlyas Əfəndiyev özünəməxsus dəst – xətti, yüksək bədii dili və fərdi üslubu olan sənətkarlarımızdandır. Azərbaycan dilinin zəngin söz xəzinəsinə , çoxçeşidli çalarına, bu dilin şəhdi- şirəsinə dərindən bələdliyindən və vurğunluğundandır ki, yazıçının əsərləri bədii dilinin poetikliyi ilə seçilir. İlyas Əfəndiyevin yaradıcılığı xalqın mənəvi sərvətindən qaynaqlanıb.

19. İlyas Əfəndiyevin bədii əsərlərinin dili aydın və obrazlıdır, zəngin ifadə vasitələrinə və lüğət tərkibinə malik bir dildir.

20. İlyas Əfəndiyevin əsərləri həyat dərsliyi, özü isə həyat müəllimidir.

21. İlyas Əfəndiyevin obrazları qocalmayan qəhrəmanlar, onun özü isə ölməz insandır. Yazıçı sözə necə rəng vuracağını dəfələrlə götür – qoy etmiş, ədəbiyyatımızda seçilən, sevilən və insanın mənəvi aləminə nüfuz edən orijinal bir üslub formalaşdırmışdır.

22. İlyas Əfəndiyev böyük duyğularla, emosiyalarla çırpınan şair qələmli bir nasirdir.

*İndi isə gəlin xalq şairi Qabilin xalq yazıçısı, qüdrətli dramaturqumuz İlyas Əfəndiyevə həsr etdiyi"Fədai" şeirini oxucumuzun ifasında dinləyək.*

Cəfər Cabbarlının ustad varisi
İlyasla səhnəyə nur axtdı gəldi.

Verginin cövhəri, təbin xalisi
Bahar sularıtək gur axdı gəldi.

Teatr - ən ülvi məbədgah, ehram
Ucuz şan – şöhrətə qapısı bağlı.
Sənətin əlçatmaz zirvəsi – dram
Sıldırımlı yolu qarlı – sazaqlı.

Neynək...dünya dolu gəldi-gedərlə
Sənət meydanı da doludur heyhat!
Sərçə öz işində cikkkiltilərlə,
Qartal əzəmətlə açır qol – qanad.

Asiman qaralar günəşsiz- aysız
Böyük el yoluna bəzəkdi karvan.
Dəniz dayazlaşar nəhrsiz, çaysız,
Səhnə sənsiz olar dənsiz dəyirman.

Dünyaya gətirən gətirib səni,
Mirzə Fətəlilər sonsuz qalmasın.
Cavid təxəyyülü, Vurğun yelkəni
Üfüqdə varissiz qanad çalmasın.

Vaxtında yetirib yetirən səni
Boşluğun əlinə keçmədi fürsət.
Böyük ehtiraslar böyük səhnəni
Bu saat... səninlə qaldırır əlbət.

Bir var ötəri səs, ötəri nəfəs,

Gül – çiçək ötəri, alqış ötəri,
Beş günlük afişa, ötəri həvəs
Ötəri cəlb edir fikri- nəzəri.

Bir də var: anadangəlmə - elə sən
Fədai olasan, Fərhad olasan,
Qaçıb xırım – xırda şirnikmələrdən
Əsərdən əsərə ustad olasan.

Bir var, bir yol dəyə güllən hədəfə
Kifayətlənəsən – "Dəydi ki... bəsdir!"
Düz nişan alasan bir var hər dəfə
Bu fitrətdən gələn sonsuz həvəsdir.

Yox, yox, bir düşünüb – daşınım gərək,
Təkcə "həvəs" sözü azdır, məncə az.
İti külünk gərək, zorlu qol gərək
Bir həvəs gücünə dağlar çapılmaz.

Əsl sənətkarlıq çətin bir aləm
Səhnə yazarlığı çətindən çətin
Məkr və məhəbbət, sevinc ilə qəm
Baxtına paylanır neçə surətin.

Ən nadir zərrəbin – sənətkar gözü:
Həm görür, həm də ki, göstərir aşkar.
Ən adil hökm də sənətkar sözü
Uçur bünövrəsiz büllur saraylar.

Atayevlərin də tale kitabı
Bir gün varaqlandı sənin əlinlə
Nargilə qızların pünhan əzabı
Şölə çəkib yandı sənin əlinlə.

Tutmusan nəbzini günün rüzgarın
Ürəklərdən keçir sənətin yolu.
Yaşıl pöhrəsidir Natəvanların
Qırmızı komandir Baltaçı oğlu.

Gəncliyin həyatı çağlar çay kimi
Əbədi nəğməndir bu axar sənin.
Gəncliyin həyatı günəş – ay kimi
Gün nurlu, ay bərqli aynan var sənin.

Səhrayi – kəbirdə tikan deyilsən,
Mehdi var, Sabit var, Ənvər, Mirzə var.
Heç kimdən təmənna uman deyilsən
Bayrağın sancılmış neçə zirvə var.

Səhnə ulduzları parlayır bir – bir,
Ad alır, san alır, şöhrətə çatır.
Təzə aktyorlar nəsli yetişir,
İlyas teatrı məktəb yaradır.

Tarix yetişdirib Şekspirləri
Görməmiş deyildir bəşər övladı.
Ancaq misilsizdir məndən ötəri

Xalqımın fədai öğlunun adı.

Eh ... nə payız...nə qış...nə ömür...nə yaş...
Yelkən qabarırsa,ümman daşırsa
Bahar içindəsən sənə ki.. qardaş,
Hər ilk tamaşada gül yaraşırsa.

**I aparıcı:** Böyük əsərlər dəhşətli əzablar içində doğulur. Əgər belə olmasaydı, dünyaya hələ keçən əsrdə Qarabağ dərdini "Xurşidbanu Natəvan"nın dilindən söyləməzdi. İ. Əfəndiyev ədəbiyyatımıza bir – birindən gözəl əsərlər bəxş etdi. Nə qədər insanlar onun qəhrəmanları ilə birgə doğuldu, böyüdü, yaşa doldu. Dönüb geriyə baxanda isə "Geriyə baxma, qoca" söylədi. Dedi ki, insan bu dünyaya yalnız xeyirxahlıq üçün gəlir, elə yaşa ki, dönüb keçmişin əzabında qovrulmayasan, unutma ki, həyat həyatı sevənindir. Xalqını o qədər sevib, ona o qədər bağlandı ki, yaratdığı qəhrəmanları sanki bir rəssam fırçası ilə təsvir etdi. Oxucu povest və romanların surətlərini qəlbinin işığı ilə gördü, sevdi. Müəllif isə oxucularını özünün müəllimi sandı.

**II aparıcı**: Gözəl yazmaq üçün gözəl düşünmək lazımdı. Çünki çox yazan deyil, gözəl yazan əbədi yaşayır. Gözəl düşünmək üçün geniş müşahidə qabiliyyəti, zəngin söz ehtiyatı və mənəvi gözəllik çox vacibdir. Bunlarsız

ədəbiyyat ola bilməz. Kiçik hekayələrindən böyük romanlarına qədər uzun , keçməkeşli bir yol keçib İlyas Əfəndiyev. Axtarıcılıq qabiliyyətinin nəhayətsizliyi hökmdarlığa qədər ("Hökmdar və qızı") yol gəlib.

Yazıçının əsərlərini oxuyarkən insan anlayır ki, məhəbbət nələrə qadirdir. Sevginin açmadığı qapı, çatmadığı hədəf- qəlb yoxdur. Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı yaşından asılı olmayaraq hər kəs üçün qiymətlidir.O, hüdudları da aşır. Çünki əsərləri insanlıq və insanlar üçün yazılmış bir mənəvi xəzinədir. Elə bir xəzinə ki, zaman-zaman daha dəyərli olur.
Xalq üçün, millət, vətən üçün…

**I aparıcı**: İndi isə gəlin xalq yazıçısı İlyas Əfəndiyevin şah əsəri sayılan "Xurşudbanu Natəvan" pyesindən bir parçaya sevimli oxucularımızın ifasında tamaşa edək.

*Səhnə dekorasiyalarla bəzədilir. Qafqaz canişininin malikanəsi. Pərdə açılanda geniş otaqda Xurşidbanu ilə Mirzə Ruhulla sükut içində dayanıb zala baxırlar. Knyaz Xasay iti addımlarla gəlib Xurşidbanunun qarşısında dayanır.*

**Knyaz Xasay**: Canişin cənabları indi buyurub sizi dinləyəcək, Banu bəyim.

**Xurşidbanu:** Təşəkkür edirəm, knyaz.

**Knyaz Xasay**. Qulluğunuzda həmişə hazıram, Banu bəyim. Bütün Azərbaycan sizinlə fəxr edir.

**Xurşidbanu**: Bu sözləri sizdən eşitmək çox xoşdur. Qarabağa qonaq gəlsəniz, bizi şad etmiş olarsınız.

**Knyaz Xasay:** Böyük məmnuniyyətlə gələrəm, Banu bəyim.
*Ortayaşlı, yaraşıqlı bir adam olan canişin otağa daxil olur.*

**Canişin:** Xoş gəlmisiniz, madmazel! Rica edirəm, əyləşin.
*Xurşidbanu ilə canişin əyləşirlər.*

**Canişin**: Sizin nəslinizə dərin hörmətim olduğuna əmin ola bilərsiniz. İbrahim xanın nəvəsinə, general Mehdiqulu xanın qızına hörmət hər kəsin borcudur. Eşitdiyimə görə, siz həm də gözəl şairəsiniz. Sizin haqqınızda kapitan Mirzə Fətəli Axundov mənə danışmışdır. Mən azərbaycanlıların igidliyinə heyranam. Elə bil ki, Allah özü də onların qəhrəmanlığını gözəl Qarabağ atları ilə mükafatlandırıb. Ancaq təəsüf ki, belə cəsur xalqın yarısı sizdən ayrı düşüb.

**Xurşidbanu:** Bu, bizim faciəmizdir, knyaz həzrətləri. İki böyük dövlətin , qədim bir tarixi olan Azərbaycan xalqını iki yerə parçalayıb, qardaşı qardaşdan ayırmaları ədalətli iş deyildir.

**Canişin:** Sizin Tiflisə təşrif buyurmağınızın səbəbi mənə məlumdur, madmazel. Mən çalışaram atanızdan qalan mülkün bir hissəsi sizə qaytarılsın.

**Xurşidbanu**: Knyaz həzrətləri, mən bütün mülklərimizin qaytarılmasını tələb edirəm. Mən varisiyektayam!

**Canişin:** Siz tək qızsınız, o qədər mülk nəyinizə lazımdır?

**Xurşidbanu:** Mən tək deyiləm, knyaz həzrətləri! Mənim yaşadığım Şuşa şəhərinin əhalisi hələ də şor su içir! Kəndlərimizin uşaqları məktəbsiz, elmsiz, kitabsız böyüyürlər. Mən onlara heç bir kömək eləyə bilmirəm.

**Canişin:** Yaxşı, madmazel, mən sizin xahişinizi olduğu kimi əlahəzrət imperatora çatdıraram. Ümid edirəm ki,imperator həzrətləri İbrahim xanın nəvəsindən öz iltifatını əsirgəməz.

**Xurşidbanu:** Diqqətinizə qarşı minnətdaram, knyaz həzrətləri. İcazənizlə biz bu gün Şuşa qalasına yola düşməliyik.

**Canişin**: Sizə yaxşı yol.

**II Pərdə**

*Xurşidbanunun malikanəsi. Xurşidbanu ilə Knyaz Xasay artıq birlikdədirlər. Knyaz Xasayla Xurşidbanu eyvana çıxıb söhbət edirlər.*

**Xurşudbanu**: Mən vətənimin keçirdiyi ağır günlər haqqında düşünərkən həmişə özümdə bir gücsüzlük hiss eləyib bir olan Allahdan nicat ummuşam. Elə bil ki, o da mənim bu faciəli xalqıma cəsarətlə xidmət eləməyim üçün səni göndərmişdir! Sən güclüsən! Qafqaz canişininin dostusan. Səni əlahəzrət imperatorun özü sevir!Sənin məhəbbətin mənim köməyim,dayağım olacaq! Birinci dəfə səni görəndə fövqəladə bir cəsarət, bir xoşbəxtlik duydum. Mənə elə gəldi ki, vətənim üçün dağı dağ üstünə qoya bilərəm!

**Knyaz Xasay**: Sizin qara camaat haqqında bu qədər ürək yanğısı ilə danışmağınız alicənablıqdır, Banu bəyim.

**Xurşidbanu:** Qara camaat demə, knyaz. Mənim o sözdən acığım gəlir.Uşaqlıqda qoca müəllimim Mirzə Ruhullah Azərbaycanın azadlığı uğrunda vuruşmuş oğulların qəhrəmanlığı haqqında mənə heyrətli əhvalatlar nağıl edərdi. Mən belə igidləri sonralar da görürdüm. Onların kədərli taleyi ürəyimi ağrıdırdı. Dünyaya Nizami Gəncəvi kimi, Füzuli kimi dahilər vermiş Azərbaycanın bu gün

